RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 195 (9362) 10 SENTYABR 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR


100




# Qarabağın "yaşıl enerji"si

## Bölgədə alternativ enerjinin istehsalı və ixracı dövlətin əsas prioritetlərindən biridir

Böyük qayıdışın yolu infrastruktur layihələrindən keçir. Prezident İlham Əliyevin dediyi kimi, doğma yurdlarından didərgin düşən soydaşlarımız böyük çətinliklərlə üzləşib və indi onların ata-baba torpaqlarında ləyaqətlə, yaxşı şəraitdə yaşamağa haqları var. Yeni yaşayış yerlərinin dünya standartlarına uyğun təzədən tikilməsi, "ağıllı" kənd və şəhərlər layihələrinin icrası da məhz bu hədəfə hesablanıb.

Əhəmiyyətli rol oynayan əsas infrastruktur layihələrindən biri də bölgənin elektrik enerjisi ilə təminatıdır. Bu gün qarşıdakı məqsəd təkcə yerli imkanlardan istifadə edib bölgəni "yaşıl enerji" ilə təmin etmək deyil. Əsas məqsəd həm də daha çox alternativ enerji istehsal edərək onun ixracına nail olmaqdır.

Bunun üçünsə ilk növbədə yerli dağ çaylarının imkanlarından istifadə edilir. Artıq Laçın rayonunda Həkəri çayının ən böyük qolu olan Hoçaz çayı üzərində yerləşən və ermənilər tərəfindən tamamilə dağıdılan 14,25 meqavat gücündə "Ağbulaq", 8,25 meqavat gücündə "Mişni" və 6 meqavat gücündə "Alxaslı" Su-Elektrik stansiyaları Prezident İlham Əliyevin tapşırığı ilə yenidən qurulub. Hazırda "Ağbulaq" Su-Elektrik Stansiyasında son tamamlama işləri aparılır. "Mişni" və "Alxaslı" Kiçik Su-Elektrik stansiyalarında isə işlər başa çatdırılıb. Bunlardan əlavə, "Ağbulaq", "Alxaslı" və "Mişni" stansiyaları ilə yanaşı, Laçın rayonunda ümumi gücü 40,5 MVt, illik enerji istehsalı potensialı 120 milyon kilovat-saat olan 5 kiçik su-elektrik stansiyası yenidən qurularaq istismara verilib. 4 stansiyanın yenidən qurulması isə davam edir. Gələn ilin birinci rübündə Laçın rayonunda ümumi gücü 65,5 MVt, illik elektrik enerjisi istehsal potensialı 194 milyon kilovat-saat olan 9 su-elektrik stansiyası fəaliyyət göstərəcək.

→ 5

# Azərbaycan-Tacikistan əlaqələrinin əhatə dairəsi genişlənir

## Tacikistan Respublikasının Prezidenti zati-aliləri cənab Emoməli Rəhmona

Hörmətli Emoməli Şərifoviç!

Tacikistan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizin müdrik rəhbərliyiniz altında Tacikistanın dövlətçiliyin möhkəmləndirilməsi, xalqın sosial-iqtisadi rifahının yaxşılaşdırılması sahələrində əldə etdiyi uğurları, beynəlxalq aləmdə nüfuz qazanması dost ölkə olaraq bizi sevindirir.

Dövlətlərarası münasibətlərimizin hazırkı səviyyəsi xalqlarımızın tarixən bir-birinə bəslədiyi rəğbət, hörmət və etimaddan qaynaqlanır. Ali səviyyəli qarşılıqlı səfərlər, müntəzəm təmaslar, müxtəlif sahələrdə imzalanan çoxsaylı sənədlər ikitərəfli əlaqələrimizin və tərəfdaşlığımızın dinamik və uğurla inkişafını şərtləndirmişdir.

İnanıram ki, hazırda Azərbaycan-Tacikistan əlaqələrinin əhatə dairəsinin genişləndirilməsi üçün formalaşmış əlverişli şəraitdən səmərəli istifadə edərək qarşılıqlı faydalı əməkdaşlığımızın möhkəmlənməsinə, həm ikitərəfli, həm də çoxtərəfli əsasda işbirliyimizin daha da dərinləşməsinə nail olacağıq.

Hörmətli Emoməli Şərifoviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Tacikistan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.



*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 sentyabr 2023-cü il*

# Prezident İlham ƏLİYEV Əlahəzrət VI Məhəmmədə başsağlığı verib

## Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədə

Əlahəzrət!

Mərakeşdə baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Mərakeş xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

*Allah rəhmət eləsin!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 sentyabr 2023-cü il*

# Dünya mediası Ermənistanın siyasi manipulyasiyalarını ifşa edir

Bolqarıstanın "The Sofia Globe" internet nəşrində isə jurnalist İqor Çalenkonun "Avropa ravvinləri erməni təbliğatına qarşı kütləvi şəkildə etiraz ediblər" sərlövhəli məqaləsi dərc olunub.

Məqalədə diqqətə çatdırılıb ki, sentyabrın 6-da yəhudi dini liderlərinin ən böyük assosiasiyasını - Avropanın Ravvinlər Mərkəzini təmsil edən 50 aparıcı ravvin Ermənistanın baş naziri və prezidentinə ünvanlanmış birgə rəsmi məktub imzalayıb. Onlar "hər hansı siyasi məqsədə çatmaq naminə" erməni təbliğatının Holokost mövzusundan istifadə etməsini "dərhal və tamamilə" dayandırmağı tələb ediblər. Məktubda vurğulanıb ki, "bu mesaj erməni xalqını təmsil edən bütün müvafiq dövlət orqanları tərəfindən nəzərə alınmalıdır". Avropalı ravvinlər həmçinin Ermənistan hökumətinin "dünyada yeganə yəhudi ölkəsini məhv etməyə davamlı olaraq açıq çağırış edən" İran İslam Respublikasının rəhbərliyi ilə əməkdaşlığından dərin məyus olduqlarını bildiriblər.

→ 3

# Ermənistan kimə arxalanır?

## Bu ölkənin müharibə hazırlığı özünə ağır zərbə olacaq

Ermənistan Azərbaycana "güc" nümayiş etdirmək istəsə də, bu, alınan deyil. Həmçinin Amerika Birləşmiş Ştatları ilə birgə təlimlərin keçirilməsi Rusiyaya heç də xoş deyil. Artıq müəyyən anonslar var ki, Rusiyanın xüsusi təyinatlı hərbi qüvvələri həmin əraziyə gəlib. Ermənilər qəsdən şayiələr yayırlar ki, guya Rusiyanın dediyi kimi hərəkət olmasa, burada hansısa çevriliş ola bilər.

Ermənistan tərəfi Azərbaycan torpaqlarını həmişəlik işğal altında saxlaya biləcəyini hesab edirdi. Haylar bununla da yanılırdılar: "Ermənistanda öz orduları haqqında yanlış təsəvvürlər, miflər formalaşmışdı. Azərbaycan Ordusu 2020-ci ilin payızında bu mifi darmadağın etdi, Ermənistan ordusunu ağır məğlubiyyətə uğratdı. Ermənistan tərəfi düşündü ki, indiki halda zaman udmalıdır və ordusunu yenidən müharibəyə hazırlamalıdır. Xəbər verildiyi kimi, ötən üç il ərzində revanşçılar Ermənistanda kifayət qədər fəaldırlar, onlar təxribatlar törədirlər. Paşinyan olduqca qeyri-stabil insandır. O, mövqelərini tez-tez dəyişməyi bacarır və təbii ki, müvafiq olaraq da siyasi təfəkkürü olduqca zəifdir".

→ 5

# Qeyri-qanuni erməni silahlı dəstələrinin Füzuli istiqamətində təxribatının qarşısı alınıb

Sentyabrın 9-u saat 17:25 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Füzuli rayonu istiqamətində yerləşən mövqelərinə yaxınlaşaraq təxribat törətmək məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində təxribatın qarşısı dərhal alınıb.

# Azərbaycan ilə İran arasında hərbi sahədə əməkdaşlıq məsələləri müzakirə olunub

Sentyabrın 9-da Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanov ölkəmizdə səfərdə olan general-mayor Məhəmməd Əhədinin rəhbərlik etdiyi İran İslam Respublikası Silahlı Qüvvələrinin nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir müavini iranlı qonaqları salamlayaraq dövlətlərimizin bir çox istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığının daha da inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu vurğulayıb.

→ 2

# Erməni separatizmi məhvə məhkumdur

## Bəzi qərəzli təşkilatların və ölkələrin dəstəyi ilə təhlükəli avantüraya qapılması Ermənistanın özünə baha başa gələcək

Azərbaycanın suveren ərazisində ikinci erməni dövləti yaratmaq kimi sərsəm iddiaların arxasınca düşərək, bu separatizm xülyalarına müxtəlif beynəlxalq qurum və KİV-i, ölkələri də alət etməyə çalışan Ermənistan, təəssüf ki, bəzi hallarda buna nail olmağı da bacarır. Erməni lobbisi pul hərisinə çevrilmiş riyakar ölkələr və qurumlar vasitəsilə Azərbaycana qarşı qarayaxma kampaniyası aparır, onların əli ilə separatizmi təbliğ edir ki, bu, ümumilikdə dünya ölkələri üçün təhlükəli tendensiyadır.

Hazırda elə Qərb ölkələrinin bir çoxunun separatizmlə üz-üzə olduğunu nəzərə alsaq, ermənilərin bu təhlükəli oyunlarına onlardan dəstək görmələri də ayrıca sual doğurur...

→ 4

# Separatçıların hədəfi Paşinyanı devirməkdir

Dünən separatçılar qondarma "parlament"də "prezident" seçkiləri keçiriblər. Seçkilərdə namizədlər Araik Arutyunyanın "xələfi" hesab olunan və keçmiş hərbi xuntaya daxil olan bütün qüvvələr tərəfindən dəstəklənən Samvel Şahramanyan, digəri Paşinyana yaxınlığı ilə tanınan, Ağdam-Xankəndi yolunun açılmasını qəbul edən Samvel Babayan idi.

Yekunda Babayanın "namizədliyi" qeydə alınmadığı üçün Şahramanyan yeganə "namizəd" kimi separatçıların yeni "başçısı" olub. Bildirilir ki, qapalı səsvermə zamanı 22 nəfər onun namizədliyinin lehinə, 1 nəfər əleyhinə səs verib.

Qeyd edək ki, separatçılar üçün Şahramanyanın bu qondarma quruma rəhbərlik etməsi asan olmayacaq. Çünki keçmiş "səhra komandiri" Samvel Babayan Xankəndidəki separatçı-kriminal rejimə rəhbərlik uğrunda mübarizədə fəal iştirak edir. Babayan erməni silahlı birləşmələri və keçmiş səhra komandirləri adlanan şəxslər arasında müəyyən nüfuza malikdir.

→ 5

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 314** **QƏRAR** **Bakı şəhəri, 7 sentyabr 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər"də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 464; 2007, № 8, maddə 852, № 12, maddə 1336; 2008, № 1, maddə 39; 2014, № 7, maddə 935; 2015, № 1, maddə 63, № 5, maddə 670; 2018, № 4, maddə 823; 2019, № 4, maddə 755; 2023, № 6, maddə 841) ilə təsdiq edilmiş "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər"in 15-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"15. İnsan orqan və (və ya) toxumalarının dövriyyəsi üçün tələb olunan əlavə şərtlər:

15.1. gözün buynuz qişasının dövriyyəsi üçün tələb olunan əlavə şərtlər:

15.1.1. gözün buynuz qişasının idxalı üçün gözün buynuz qişasının Göz Bankı Assosiasiyaları Qlobal İttifaqı (Global Alliance of Eye Bank Associations) tərəfindən akkreditasiya olunmuş Göz Bankı tərəfindən tədarük olunmasını təsdiq edən sənəd;

15.1.2. gözün buynuz qişasının ixracı üçün gözün buynuz qişasını qəbul edən tibb müəssisəsinin Göz Bankı Assosiasiyaları Qlobal İttifaqı (Global Alliance of Eye Bank Associations) tərəfindən akkreditasiya olunmuş Göz Bankının olmasını təsdiq edən sənəd.".

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 315** **QƏRAR** **Bakı şəhəri, 7 sentyabr 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 951, № 12, maddə 1653; 2015, № 5, maddə 615; 2016, № 10, maddə 1727; 2017, № 4, maddə 621, № 9, maddə 1759, № 11, maddə 2149; 2018, № 4, maddə 824, № 5, maddə 1131; 2019, № 4, maddə 770, № 5, maddə 966; 2021, № 11, maddə 1266) ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.6.11-ci yarımbənddə "mallar" sözündən sonra "(insan orqan və toxumaları istisna olmaqla)" sözləri əlavə edilsin.

2. 2.6.13-cü yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 2.6-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.6-1. Transplantasiya məqsədilə insan orqan və toxumaları idxal və ya ixrac edildikdə bu Qaydaların 2.5.1-ci yarımbəndində göstərilən sənədlərin əvəzinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 345 nömrəli Qərarı ilə təsdiq edilmiş "Transplantasiya məqsədilə donor orqanların idxalı və ixracı Qaydası"nın 3.11-ci bəndinə müvafiq olaraq gömrük orqanları tərəfindən transplantasiya məqsədilə insan orqan və toxumalarının idxalına və ixracına xüsusi icazə verilməsi barədə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki Orqan Donorluğu və Transplantasiya üzrə Koordinasiya Mərkəzinin qərarının mövcudluğu yoxlanılır.".

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 316** **QƏRAR** **Bakı şəhəri, 7 sentyabr 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 345 nömrəli Qərarı ilə təsdiq edilmiş "Transplantasiya məqsədilə donor orqanların idxalı və ixracı Qaydası"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 345 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1079) ilə təsdiq edilmiş "Transplantasiya məqsədilə donor orqanların idxalı və ixracı Qaydası"nın 2.3.3-cü yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.3.4-cü yarımbənd əlavə edilsin:

"2.3.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsi üçün tələb olunan əlavə Şərtlər"in 15-ci hissəsi ilə müəyyən edilmiş təsdiqedici sənədlər (əlavə şərtlər olduğu halda).".

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 317** **QƏRAR** **Bakı şəhəri, 8 sentyabr 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 aprel tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri, Cənubi Qafqaz Boru Kəməri və Cənubi Qafqaz Boru Kəməri Genişləndirilmiş boru kəmərlərinin məsləhətləşmə və mühafizə zonalarının müəyyən edilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 aprel tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 786; 2022, № 8, maddə 1020, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri, Cənubi Qafqaz Boru Kəməri və Cənubi Qafqaz Boru Kəməri Genişləndirilmiş boru kəmərlərinin məsləhətləşmə və mühafizə zonalarının müəyyən edilməsi Qaydaları"nın 2.1.4-cü yarımbəndinə "Azərbaycan Respublikasının Energetika Nazirliyi" sözlərindən sonra "və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 318** **QƏRAR** **Bakı şəhəri, 8 sentyabr 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında" 2014-cü il 1 may tarixli 118 nömrəli və "Elektron icra" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

"Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 8 iyul tarixli 587-VIQD nömrəli Qanununun tətbiqi və "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 616 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 avqust tarixli 1816 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547; 2015, № 8, maddə 974, № 11, maddə 1417; 2016, № 4, maddə 795, № 5, maddə 955, № 6, maddə 1192, № 9, maddə 1582, № 11, maddə 1938, № 12, maddə 2239; 2017, № 3, maddələr 473, 509, № 9, maddələr 1731, 1764; 2018, № 2, maddə 348, № 5, maddə 1117, № 6, maddələr 1359, 1361, № 9, maddələr 1911, 1931, № 11, maddə 2457; 2019, № 2, maddə 331, № 4, maddə 773, № 5, maddə 948; 2020, № 4, maddə 489; 2021, № 2, maddə 194; 2022, № 8, maddə 982; 2023, № 2, maddələr 294, 302, № 3, maddə 435) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın 6.1-1-ci və 6.1-2-ci bəndləri ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1175; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 8 iyul tarixli 224 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Elektron icra" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 11.3.13-cü yarımbənddə "məcburi dövlət sosial sığortası üzrə fərdi uçot sistemində sığortaolunan kimi qeydiyyatda olmasına" sözləri "dövlət sosial sığorta sistemində fərdi uçotunun olub-olmamasına" sözləri ilə əvəz edilsin;

2.2. 11.3.15-ci yarımbəndə "sığorta" sözündən sonra "haqları" sözü əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Tahir Budaqov YAP-ın Çinə səfər edəcək nümayəndə heyəti ilə görüşüb

**Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov partiyanın 2023-cü il sentyabrın 11-19-da Çin Xalq Respublikasında (ÇXR) səfərdə olacaq gənclərdən ibarət nümayəndə heyəti ilə görüşüb.**



Partiyanın Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan-Çin münasibətlərinin dostluğa və tərəfdaşlığa əsaslandığını vurğulayan Tahir Budaqov qeyd edib ki, iki ölkə arasında müxtəlif sahələri əhatə edən əməkdaşlığın dərinləşdirilməsi üçün əlverişli şərait və etibarlı zəmin mövcuddur. Azərbaycan-Çin münasibətlərinin hər iki ölkənin liderləri Prezident, partiyamızın Sədri İlham Əliyev ilə ÇXR-in və Çin Kommunist Partiyasının Sədri Si Cinpinin siyasi iradələri sayəsində dinamik inkişafa malik olduğunu diqqətə çatdıran YAP Sədrinin müavini ölkələrimizin ikitərəfli və beynəlxalq platformalar çərçivəsində münasibətləri inkişaf etdirərək əhəmiyyətli nailiyyətlər qazandıqlarını vurğulayıb.

Ötən il Səmərqənddə Prezident İlham Əliyev ilə Si Cinpinin görüşünün əhəmiyyətindən bəhs edən Tahir Budaqov yeni geostrateji reallıqlar fonunda Azərbaycan-Çin əməkdaşlığının inkişafının hər iki dövlət üçün prioritet olduğunu qeyd edib. Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı zəfərdən sonra yaranmış yeni reallıqlardan söz açan YAP Sədrinin müavini postmüharibə dövründə bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə xidmət edən təşəbbüslərin önəmini diqqətə çatdırıb. Qeyd olunub ki, Zəngəzur dəhlizinin reallaşdırılması və Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsi çərçivəsində işbirliyi yeni çoxtərəfli əməkdaşlıq platformasının formalaşmasını təmin edəcək.

YAP Mərkəzi Aparatının rəhbəri Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının əməkdaşlıq əlaqələrinin mühüm rolunun olduğunu diqqətə çatdırıb. Tahir Budaqov Azərbaycan Prezidenti İlham Əliyev ilə ÇXR-in Sədri Si Cinpinin siyasi iradələrinə uyğun olaraq YAP ilə Çin Kommunist Partiyası arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində mühüm addımların atıldığını vurğulayıb. YAP Sədrinin müavini hakim partiyaların fəal dialoqunun xalqlarımız arasında dostluq münasibətlərinin möhkəmlənməsinə, çoxşaxəli əməkdaşlığın dərinləşməsinə və bütövlükdə Azərbaycan-Çin münasibətlərinin inkişafına təkan verdiyini, qarşılıqlı səfərlərin bu baxımdan xüsusi önəm daşıdığını bildirib.

Cari ilin may ayında YAP nümayəndə heyətinin Çin Xalq Respublikasında səfərdə olduğunu və yüksəksəviyyəli, məhsuldar görüşlər keçirdiyini, istər Azərbaycan-Çin münasibətləri, istərsə də Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında çoxşaxəli əməkdaşlığa dair ətraflı fikir mübadiləsinin aparıldığını xatırladan Tahir Budaqov pandemiyadan sonra ÇXR-ə rəsmi səfərə dəvət edilən ilk nümayəndə heyətinin məhz Yeni Azərbaycan Partiyasından olmasını dostluq və tərəfdaşlıq nümunəsi kimi dəyərləndirib: "Həmin səfər çərçivəsində partiyalarımız arasında təmasların intensivləşdirilməsi, əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi ilə əlaqədar geniş müzakirələr aparıldı. Qarşılıqlı səfərlərin davam etdirilməsinə, o cümlədən partiyalarımızı təmsil edən gənclər arasında əlaqələrin sıxlaşdırılmasına dair önəmli təklif və təşəbbüslər irəli sürüldü. 2023-cü il sentyabrın 11-dən 19-dək davam edəcək səfər məhz bu əməkdaşlığın mühüm tərkib hissəsidir. Səfər çərçivəsində nümayəndə heyəti önəmli görüşlər keçirəcək, o cümlədən bir sıra tədbirlərdə iştirak edəcək. Bu, partiyalar arasında ikitərəfli və çoxşaxəli münasibətlərin inkişafı ilə əlaqədar atılan mühüm addımlardan biridir".

Tahir Budaqov YAP nümayəndə heyətinin ÇXR-ə səfər proqramının zəngin olduğunu diqqətə çatdırıb. O, səfərin iki ölkənin hakim partiyalarının gəncləri arasında uğurlu əməkdaşlığın, davamlı ünsiyyətin təmin olunması, qarşılıqlı fikir və təcrübə mübadiləsinin aparılması və işbirliyinə dair yol xəritəsinin müəyyənləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini deyib.

Səfərin uğurlu keçəcəyinə inamını ifadə edən YAP Sədrinin müavini nümayəndə heyətinə müvafiq tövsiyə və tapşırıqlarını verib.

Nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycanla Çin Xalq Respublikası arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini bildirib. O qeyd edib ki, YAP nümayəndə heyətinin Çinə səfəri həm ölkələr, həm də partiyalararası əlaqələrin güclənməsinə töhfə verəcək. Z.Əsgərov səfərin məhsuldar olacağına əminliyini ifadə edib.

# Azərbaycan ilə İran arasında hərbi sahədə əməkdaşlıq məsələləri müzakirə olunub

*Əvvəli 1-ci səh.*

Baş direktor Birgə Komissiyanın ölkəmizdə keçirilən işçi görüşünün ikitərəfli hərbi əməkdaşlığa müsbət töhfələr verəcəyindən əminliyini ifadə edib. Sonra Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikası Müdafiə Nazirliyi və İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı arasında hərbi sahədə əməkdaşlığa dair "Birgə komissiya"nın 3-cü iclası keçirilib.



İclasda Azərbaycan ilə İran arasında hərbi sahədə əməkdaşlığın genişləndirilməsi, hər iki ölkənin hərbi nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili və digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Xocavənd istiqamətində növbəti təxribatın qarşısı alınıb

Sentyabrın 9-u saat 19:15 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri ordumuzun Xocavənd rayonu istiqamətində yerləşən mövqeləri qarşısında yeni səngərlər qazmağa cəhd göstəriblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ordumuzun bölmələri tərəfindən görülən tədbirlər nəticəsində aparılan işlər dayandırılıb.

# "Dəniz Təməl Komando kursu"nun növbəti buraxılışı olub

**Hərbi Dəniz Qüvvələrində (HDQ) "Dəniz Təməl Komando kursu"nun növbəti buraxılışına həsr olunmuş mərasim keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mərasimdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Çıxış edən Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Sübhan Bəkirov kursu bitirən hərbi qulluqçuları salamlayaraq Müdafiə Nazirliyi rəhbərliyinin təbriklərini çatdırıb.



Qeyd edilib ki, ordumuzun tərkib hissəsi olan Hərbi Dəniz Qüvvələri də respublikamızın təhlükəsizliyinə yönələn təhdidlərin qarşısının alınması, eləcə də Xəzər dənizinin Azərbaycana məxsus ərazi sularında etibarlı mühafizənin, əlverişli əməliyyat rejiminin saxlanılması və digər tapşırıqların icrası üçün digər qoşun növləri ilə birlikdə fəaliyyətini davamlı olaraq inkişaf etdirir.

"Dəniz Təməl Komando kursu"nun məzunları göstərilən yüksək etimadı xidməti fəaliyyətləri ilə doğruldacaqlarına söz veriblər.

Məzunlara sertifikatlar təqdim olunduqdan sonra kurs birinciləri, eləcə də kursun təşkilində və keçirilməsində fərqlənən təlimatçılardan bir qrupu mükafatlandırılıb.

"Dəniz Təməl Komando kursu"nun buraxılışına həsr olunmuş mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

# XİN Azərbaycanın Qarabağ bölgəsində Ermənistan tərəfindən yaradılmış qondarma rejimin "seçkilər"i ilə bağlı bəyanat yayıb

**Azərbaycan Respublikasının Qarabağ bölgəsində Ermənistanın işğalı nəticəsində yaradılmış qondarma rejimin "prezident seçkiləri" adı altında apardığı qanunsuz fəaliyyət Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasıdır.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin Azərbaycanın Qarabağ bölgəsində Ermənistan tərəfindən yaradılmış qondarma rejimin "seçkilər" adlandırdığı qanunsuz fəaliyyəti ilə bağlı yaydığı bəyanatında əksini tapıb.

Bəyanatda həmçinin bildirilir: "Azərbaycan Respublikası ərazisində siyasi iradənin seçki vasitəsilə ifadəsinin legitim əsasını yalnız Azərbaycan Respublikasının Konstitusiyası və qanunları təşkil edir. Azərbaycan ərazilərində yaradılmış qondarma separatçı rejim 30 ilə yaxın müddətdə davam etmiş təcavüz və etnik təmizləmə siyasətinin nəticəsidir. Azərbaycanın suveren ərazilərində yaradılmış və Ermənistanın hərbi, siyasi, maliyyə və digər dəstəyi sayəsində mövcudluğunu davam etdirməyə çalışan bu rejim tərəfindən atılan addımların heç bir qanuni qüvvəsi yoxdur.

Qeyd edilən addım Ermənistanın son dövrdə xüsusilə kəskinləşən təxribatçı və təhrikedici fəaliyyətinin daha bir elementi olmaqla, bölgədə normallaşma və etnik erməni sakinlərin Azərbaycan Respublikasının konstitusion çərçivəsinə reinteqrasiya edilməsi səylərinə ciddi zərbədir. Qondarma "seçkilər"in keçirilməsi bir daha aydın şəkildə göstərir ki, status-kvonun saxlanılması, işğalçı siyasətinin davam etməsi üçün addımlar atan Ermənistan və onun yaratdığı qondarma rejim sülh prosesində həqiqətən maraqlı deyil və bunun əksinə, təxribat və vəziyyəti gərginləşdirmək yolunu tutub. Ermənistan öz xalqını və beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi daşıyan lüzumsuz cəhdlərindən əl çəkməli, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddialara son qoymalı, normallaşma prosesində konstruktiv şəkildə iştirak etməli və beynəlxalq öhdəliklərinə əməl etməlidir. Ermənistanın Azərbaycanın öz suveren ərazisində yaşayan etnik ermənilər ilə dialoquna maneə olması Azərbaycan Respublikasının daxili işlərinə kobud müdaxilə, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı qəsddir. Azərbaycan Respublikası beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyi və ərazi bütövlüyünə qarşı törədilən təhdidlərin qarşısını qətiyyətlə alacaqdır. Bölgədə sülh və sabitliyə nail olmağın yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, qondarma rejimin buraxılmasıdır.

Azərbaycan Respublikası beynəlxalq cəmiyyətin bütün üzvlərini beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə uyğun olaraq, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönələn addımlara düzgün siyasi qiymət verməyə, Ermənistanı bölgədə kövrək normallaşma səylərini təhlükə altına alan addımlardan çəkindirmək üçün təsirli tədbirlər görməyə, "seçki" adlandırılan qanunsuz fəaliyyətləri qətiyyətlə pisləməyə çağırır".

# Azərbaycan XİN Ukraynanın bir sıra ərazilərində keçirilmiş qondarma "seçkilərə" dair bəyanat yaydı

**Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) Ukraynanın bir sıra ərazilərində keçirilmiş qondarma "seçkilərə" dair bəyanat yayıb.**

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: "Azərbaycan və Ukrayna bir-birinin suverenliyini və ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Bundan irəli gələrək Azərbaycan Ukrayna ərazisində bu dövlətin Konstitusiyasına və qanunvericiliyinə uyğun şəkildə keçirilən istənilən seçkinin legitim ola biləcəyini bəyan edir. Azərbaycanın bu prinsipial mövqeyi beynəlxalq hüququn dövlətlərin suverenliyinə aid olan hüquqlara hörmətlə bağlı universal şəkildə tanınmış norma və prinsiplərinə əsaslanır.

Bu meyarlara cavab vermədiyi üçün Ukraynanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin bir hissəsində keçirilən son "seçkilər"in, ümumiyyətlə, heç bir qanuni qüvvəsi yoxdur".

# *Türkiyə XİN:* "Qarabağda qondarma rejimin keçirdiyi "prezident seçkilərini" tanımırıq"

**Türkiyə Azərbaycanın Qarabağ bölgəsində qondarma rejimin keçirdiyi "prezident seçkilərini" tanımır. AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib.**

"Türkiyə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün pozulmasını ifadə edən bu qanunsuz seçkiləri tanımır. BMT-ni və beynəlxalq ictimaiyyəti bu seçkiləri tanımamağa çağırırıq", - deyə bəyanatda vurğulanıb.

Qeyd olunub ki, qondarma "seçkilər" beynəlxalq hüququn, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və ATƏT-in prinsiplərinin pozulmasıdır.

Türkiyə XİN Azərbaycan və Ermənistanın sülh danışıqlarını davam etdirməyə çalışdığı bir vaxtda keçirilən bu "seçkiləri" pisləyib və onu danışıqları sarsıtmağa yönəlmiş addım kimi qiymətləndirib.

"Türkiyə Azərbaycan və Ermənistan arasında sülh danışıqları prosesini dəstəkləyir və yaxın gələcəkdə uzunmüddətli sülh sazişinin imzalanmasının regionda sülh və sabitliyə mühüm töhfə verəcəyinə inamını qorumaqdadır", - deyə Türkiyə XİN-dən bildiriblər.

# Türk Dövlətləri Təşkilatı Qarabağda qondarma "seçkilərlə" bağlı bəyanat verib

**Türk Dövlətləri Təşkilatının Katibliyi Azərbaycan Respublikasının ərazisində qanunsuz separatçı rejim tərəfindən keçirilən qondarma "prezident seçkiləri" ilə bağlı bəyanat yayıb.**

AZƏRTAC təşkilatın rəsmi saytına istinadla xəbər verir ki, bəyanatda deyilir: "Türk Dövlətləri Təşkilatının Baş katibi 2023-cü il sentyabrın 9-da Azərbaycan Respublikasının Qarabağ bölgəsində Ermənistanın yaratdığı qanunsuz rejim tərəfindən təşkil edilən qondarma "prezident seçkiləri" ilə bağlı dərin narahatlığını ifadə edir.

Biz regionda sülh və sabitliyə xələl gətirən bu təxribatçı hərəkəti beynəlxalq hüququn, eləcə də Azərbaycan Konstitusiyasının və qanunlarının kobud şəkildə pozulması kimi qətiyyətlə pisləyirik. Eyni zamanda biz Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin öz konstitusiya sisteminə yenidən inteqrasiyası istiqamətində səylərini yüksək qiymətləndiririk.

Baş katib Qarabağ bölgəsinin Azərbaycanın və türk dünyasının bir hissəsi olduğunu bir daha vurğulayır və buna görə də Azərbaycan və Ermənistan arasında normallaşma prosesinə mane ola biləcək hər hansı hərəkətlərdən çəkinməyə və konstruktiv dialoqa çağırır.

# Dünya mediası Ermənistanın siyasi manipulyasiyalarını ifşa edir

**Dünyanın bir sıra nüfuzlu mətbuat orqanlarında Ermənistanın siyasi manipulyasiyalarını, Qarabağ ermənilərinin "humanitar fəlakət" yalanlarını ifşa edən məqalələr dərc edilir.**

AZƏRTAC xəbər verir ki, "Imperial Valley Press" nəşrində politoloq Raul Kontrerasın müəllifi olduğu məqalədə hələ ötən əsrin 60-cı illərində böyük güclər - ABŞ və SSRİ-nin arasında geosiyasi mübarizə fonunda "The New York Times" qəzetinin amerikalı əsgərlərin Vyetnama göndərilməsi ilə bağlı təhrikedici məqalələri xatırladılır və bir neçə gün əvvəl Nikolas Kristoffun Azərbaycana qarşı yazdığı qərəzli yazı ilə müqayisə aparılır.

Müəllif yazır: "Kristoffun nə vaxtsa Azərbaycanda və ya onun düşməni Ermənistanda olub-olmadığını bilmirəm. Onun Azərbaycana qarşı iddialarını araşdırmağa dəyər... Kristoff Azərbaycan və onun işğalçı qonşusu Ermənistan arasında 30 illik münaqişə haqqında mənim qədər məlumatı ola bilməz. Son səkkiz ildə altı dəfə orada olmuşam. Mən erməni hərbi cinayətləri haqqında kitab, Azərbaycan və onun Ermənistanla problemləri barədə bir neçə məqalə yazmışam. Həmçinin Azərbaycan torpaqlarında erməni işğalçıları ilə azərbaycanlı əsgərlər arasında 500 metr enində olan sahədə 24 saat həyəcan siqnalı ilə dayanmışam. Kristoffun məlumatı yoxdur ki, bu münaqişə 1980-ci illərdə - əsrlər boyu Ermənistan ərazisində yaşayan azərbaycanlı müsəlman əhalinin xristian ermənilər tərəfindən qovulması ilə başlayıb. O, 1988-1992-ci illər arasında Ermənistan hərbçilərinin təxminən 200 min azərbaycanlını qətlə yetirdiyini və ya doğma evlərindən didərgin saldığını da yazmır. Üstəlik, 1992-ci ildə Ermənistan Azərbaycana soxularaq onun ərazisinin 20 faizini, o cümlədən bütün Dağlıq Qarabağ bölgəsini işğal edib, çoxlu sayda dinc sakini öldürüb və ya öz yurd-yuvasından qovub. İşğalçılar heç kəsə aman vermirdilər; kişilər, qadınlar və uşaqlar paytaxt Bakıya qaçırdılar".

Müəllif qeyd edir ki, Azərbaycan əleyhinə məqalə yazan Kristoff Birləşmiş Millətlər Təşkilatının bir milyona yaxın azərbaycanlının öz evlərindən didərgin salındığını göstərən rəsmi hesabatlarını da görməyib. O, 1994-cü ildə ermənilərin işğal etdiyi Azərbaycanın böyük şəhəri olan Ağdamın tamamilə dağıdılması faktına da diqqət yetirməyib. "Ermənilər mis telefon xətləri, telefon dirəkləri kimi dəyərli hər hansı material və əşyaları oğurlamaq üçün işçi briqadaları göndərir, sökülən evlərdən taxta, şüşə pəncərələr, küçə döşəmələri və s. daşıyır, 50 min əhalisi olan şəhəri yerlə yeksan edirdilər", - deyə Kontreras qeyd edib.

Politoloq diqqətə çatdırıb ki, Kristoff öz yazısında Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroru Luis Moreno Okamponun "Dağlıq Qarabağda yaşayan 120 min erməniyə qarşı davam edən "soyqırımı" adlı hesabatına istinad edib. O əlavə edib ki, əslində, yaranmış vəziyyət ermənilərin Laçın yolu ilə qaçaq silah daşıması ilə bağlıdır. Rusiya sülhməramlılarının nəzarətində olan ərazidə yerləşən bu yolda ermənilərin qeyri-qanuni fəaliyyətlərinə qarşı tədbir görülməsi Azərbaycanın suveren hüququdur. Eyni zamanda, yüklərini düzgün sənədləşdirən ermənilərə tranzit yoldan istifadə etməyə icazə verilir. Həmçinin Azərbaycanın Qırmızı Aypara Cəmiyyəti "ac qaldıqları" iddia edilən insanlar üçün humanitar yardım karvanı da göndərib.

R.Kontreras vurğulayıb: "Ermənilər Qırmızı Aypara bayraqları dalğalanan yük maşınları karvanını sevinclə qarşıladılar? Xeyr. Ağdamdan gələn yolu beton barrikadalarla bağladılar. Bu yardım ermənilərin viran qoyduqları həmin o 50 minlik Ağdam şəhərindən yola çıxmışdı. Təəccüblüdür ki, "aclıqdan öldüyünü" iddia edən ermənilər yük maşınlarını Azərbaycanın öz ərazisinə buraxmaqdan imtina edirlər. Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroru, "ermənilərin aclıqdan öldüyünü iddia edən" "mütəxəssis" Luis Moreno Okampoya gəlincə, onun regiona səfər etməsi barədə heç bir sübut yoxdur və Azərbaycanın bu ərazisinə getmək istəyirsə, 1991-ci ildən müstəqil olan və suveren ərazisi beynəlxalq miqyasda tanınan Azərbaycanın rəsmi orqanlarından giriş vizası almalıdır".

Bolqarıstanın "The Sofia Globe" internet nəşrində isə jurnalist İqor Çalenkonun "Avropa ravvinləri erməni təbliğatına qarşı kütləvi şəkildə etiraz ediblər" sərlövhəli məqaləsi dərc olunub.

Məqalədə diqqətə çatdırılıb ki, sentyabrın 6-da yəhudi dini liderlərinin ən böyük assosiasiyasını - Avropanın Ravvinlər Mərkəzini təmsil edən 50 aparıcı ravvin Ermənistanın baş naziri və prezidentinə ünvanlanmış birgə rəsmi məktub imzalayıb. Onlar "hər hansı siyasi məqsədə çatmaq naminə" erməni təbliğatının Holokost mövzusundan istifadə etməsini "dərhal və tamamilə" dayandırmağı tələb ediblər. Məktubda vurğulanıb ki, "bu mesaj erməni xalqını təmsil edən bütün müvafiq dövlət orqanları tərəfindən nəzərə alınmalıdır". Avropalı ravvinlər həmçinin Ermənistan hökumətinin "dünyada yeganə yəhudi ölkəsini məhv etməyə davamlı olaraq açıq çağırış edən" İran İslam Respublikasının rəhbərliyi ilə əməkdaşlığından dərin məyus olduqlarını bildiriblər. Avropa Ravvinlər Mərkəzinin rəsmi internet saytında "erməni liderlərinin qonşuları Azərbaycana qarşı kampaniyada Holokost ritorikasından istifadə etməsi" pislənilib.

Müəllif yazır: "Bundan başqa, Holokostdan sağ çıxanların yaratdığı İsrail İrs Fondu öz bəyanatında vurğulayır ki, onlar "Ermənistan hökumətinin rəsmiləri tərəfindən Qarabağ bölgəsindəki vəziyyəti müzakirə etmək üçün "Holokost" sözündən istifadəni rədd edirlər və hər hansı müqayisənin əsassız olduğunu iddia edirlər. ABŞ-da yəhudiliyin ən nüfuzlu hərəkatı olan "Şabat"ın əsas onlayn platforması "Chabadinfo" saytı ermənilərin rəsmi Bakıya qarşı "soyqırımı" ilə bağlı ittihamlarını "böhtan kampaniyası" adlandırıb.

Pan-Avropa yəhudi jurnalı "Jüdisches Europa" qeyd edib ki, Ermənistan baş nazirinin timsalında nasistlərin "yəhudi məsələsinin son həlli" siyasəti ilə Azərbaycanın Qarabağdakı ermənilərə münasibəti arasında analogiyaların aparılması tamamilə əsassızdır. Məqalədə daha sonra vurğulanıb ki, "İrandan asılı olan Ermənistan liderləri artıq BMT-də "aclıq soyqırımı" elan edir, amma sosial media Qarabağda ermənilərin çəkdiyi qızardılmış ət və tortların qalaqlandığı səs-küylü restoranların və dəbdəbəli toyların fotoları ilə doludur. "Jüdisches Europa" qeyd edib ki, hələ də "aclıqdan ölən əhali" iddialarını dəstəkləmək "qlobal elektron media əsrində olduqca çətindir".

Məqalədə qeyd edilib ki, Fransanın şimal-şərqindəki Mozel departamentinin və Metz şəhərinin baş ravvini Bruno Fişzon Ermənistanın siyasi liderinin Holokost zamanı yəhudilərin məhv edilməsi ilə mövcud vəziyyəti müqayisə edən şərhlərinin onu şoka saldığını yazıb. Vyana ravvini Arie Folger isə avqustun sonunda rəsmi Bakının razılığı olmadan Ermənistandan Azərbaycanın Qarabağ ərazisinə getməyə cəhd edən Fransa bələdiyyə məmurlarını humanitar yardımı siyasiləşdirməkdə ittiham edib.

Fransa, Almaniya, İspaniya, İtaliya və Böyük Britaniya kimi ölkələrin aparıcı ravvinləri erməni təbliğatının və Azərbaycana qara yaxılması üsullarının əleyhinə çıxış edən yüzə yaxın Avropa yəhudi ruhani orqanının birgə müraciətini imzalayıblar. Bolqarıstanın baş ravvini Yosef Salamon da onları dəstəkləyib.

# Amerika Birləşmiş Ştatları Senatının Xarici əlaqələr komitəsinə Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsindən

## AÇIQ MƏKTUB

**Diqqətinizi Senatın Xarici əlaqələr komitəsində sentyabrın 14-də Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin bir hissəsi ilə bağlı keçiriləcək dinləməyə yönəltmək istəyirik.**

Dinləmənin təşkil edilməsi bizi heç də təəccübləndirmədi, çünki bu, ABŞ Konqresindəki müəyyən dairələrin uzun müddətdən bəri bizim ölkəmizə qarşı dəstəklədiyi bədnam qərəz, ayrı-seçkilik və manipulyasiyanın növbəti təzahürüdür. Azərbaycanın müstəqillik əldə etdiyi ilk gündən etibarən radikal erməni qruplaşmaları və Birləşmiş Ştatlar Konqresində onlarla əlbir olan qüvvələr Azərbaycana qarşı təcavüzü təşviq edən, radikalları cəzasız olaraq insan iztirablarına səbəb olan ağır cinayətlər törətməyə təhrik edən fəaliyyət yolu seçmişlər. Nəticədə Ermənistan Respublikası 250 min azərbaycanlını bugünkü Ermənistan ərazisindəki doğma torpaqlarından zorla didərgin salmış, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini 30 il işğal altında saxlamış, müxtəlif etnik və dini mənşəyə mənsub olan 700 mindən çox azərbaycanlını etnik təmizləməyə məruz qoymuşdur.

Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq qurumlar da daxil olmaqla, beynəlxalq ictimaiyyət bu vəhşilik hərəkətlərini pisləmişdir. Lakin bu cür hərəkətlər nəinki Konqresdə qınanmamış, həm də radikalların dəstəkçiləri təcavüz qurbanı olan Azərbaycan xalqına yardım göstərilməsinin qarşısını ala bilmişlər. Hələ bu azmış kimi, "keçmiş Sovet İttifaqının hər hansı digər müstəqil dövlətinin ərazi bütövlüyünü və ya milli suverenliyini pozan hərəkətə yol verən keçmiş Sovet İttifaqının müstəqil dövlətinin hökumətinə" vəsait verilməməsini nəzərdə tutan dövlət siyasətinin həyata keçirilməsi zamanı təcavüzkar Ermənistan üçün istisna edilmişdir. Beləliklə, Azərbaycan ərazisinin 30 ilə yaxın işğalı və əhalisinin etnik təmizlənməsi dövründə Ermənistan öz təcavüzünü davam etdirmək üçün səxavətlə yardım almışdır.

Bütün bunlarla birlikdə, beynəlxalq hüququn fundamental prinsipləri kobudcasına pozularaq Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğalının nəticələrini qanuniləşdirməyə cəhdlər göstərilmiş, bununla da insanların çəkdiyi iztirablar artırılmış, erməni və Azərbaycan xalqlarının ziyanına olaraq sülh, sabitlik və firavanlıq ümidləri boşa çıxarılmışdır.

Yalnız Azərbaycanın çoxmillətli və çoxkonfessiyalı xalqı xarici təcavüzə və işğala qarşı mübarizə aparmaq arzusu ilə sıx birləşərək 2020-ci ildə öz dövlətinin - Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü bərpa etdikdən sonra yenidən sülh perspektivi yaranmışdır. Ədalətin zəfər çalması regiona sülh, normallaşma və barışıq ümidləri gətirmişdir. Azərbaycan bu imkandan istifadə edərək Ermənistana beynəlxalq hüquqa əsaslanan sülh sazişi təklif etmişdir. Həmin sazişin beynəlxalq səviyyədə, o cümlədən ABŞ hökuməti tərəfindən dəstəklənməsi nəzərəçarpan nəticələrə gətirib çıxarmışdır, belə ki, Ermənistan ərazi iddialarından əl çəkmiş və 2022-ci il oktyabrın 5-də Qarabağ regionu da daxil olmaqla Azərbaycanın suverenliyini tanımışdır.

Lakin hər dəfə sülh sazişi əlçatan olan kimi Ermənistan son 30 ildə istifadə etdiyi bədnam taktikasına qayıdır: danışıq görüntüsü yaradır, əvvəlki razılaşmalardan geri çəkilir və götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırır. Qeyd edilməlidir ki, Ermənistan Azərbaycan ərazisində qanunsuz qalan və regionda ən böyük qeyri-sabitlik mənbəyi olan silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarmaqla bağlı götürdüyü öhdəliyi yerinə yetirmir. Üstəlik, bu ölkə həm də bütün mümkün vasitələrlə Azərbaycanda separatizmi dəstəkləyir, eyni zamanda erməniəsilli sakinləri girova çevirir, onlardan öz bədxah planlarını reallaşdırmaq üçün istifadə edir.

Bu baxımdan qeyd edilməlidir ki, yuxarıda adıçəkilən dinləmənin təşkili regionda qeyri-sabitlik və münaqişənin alovlanmasına xidmət edir. Əsas məsələ budur ki, son 30 ildə Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı Ermənistanın təcavüz siyasətinin dəstəklənməsi və himayə edilməsi ABŞ-yə fayda verməmiş, daha çox Azərbaycanın aparıcı rol oynadığı strateji əhəmiyyətli regionda ABŞ-nin strateji maraqlarına və mövcudluğuna xələl gətirmişdir.

Göstərilən bütün cəhdlərə baxmayaraq, Azərbaycan öz suverenliyinin pozulmasına yönələn hərəkətlərin qarşısını alacaq, dönmədən sülhə, normallaşmaya və öz Konstitusiyası çərçivəsində erməniəsilli vətəndaşlarının reinteqrasiyasına nail olacaqdır.

# Nazir Ceyhun Bayramovla ABŞ Dövlət katibinin köməkçisi arasında növbəti telefon danışığı olub

**Sentyabrın 9-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Yuri Kim arasında növbəti telefon danışığı baş tutub.**





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı regionda son vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov Ermənistanın və onun tərəfindən Azərbaycan ərazilərində yaradılmış qondarma rejimin Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı artan təxribatlarının, öhdəliklərə zidd olaraq Azərbaycan ərazilərindən hələ də çıxarılmamış erməni silahlı qüvvələrinin bölgədə sülhə və təhlükəsizliyə əsas təhdid olduğunu diqqətə çatdırıb.

Azərbaycanın Qarabağ bölgəsində qondarma rejimin sentyabrın 9-da "prezident seçkiləri" adı altında apardığı qanunsuz fəaliyyətin Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozuntusu olduğu, bu addımın bölgədə normallaşma və erməni sakinlərin Azərbaycan Respublikasının konstitusion çərçivəsinə reinteqrasiya edilməsi səylərinə ciddi zərbə vurduğu bildirilib.

Erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, qondarma rejimin buraxılmasının zəruri olduğu nazir tərəfindən vurğulanıb.

Nazir beynəlxalq hüquqdan irəli gələn öhdəliklərə uyğun olaraq Azərbaycan ərazisində "seçki" adı altında aparılan bu qanunsuz fəaliyyəti qətiyyətlə pisləməyə çağırıb.

Telefon danışığı zamanı tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Ukrayna XİN Qarabağ ərazisində qondarma "prezident seçkilərinin" keçirilməsini pisləyir

**Ukraynanın Xarici İşlər Nazirliyi sentyabrın 9-da Qarabağ ərazisində (Azərbaycan Respublikası) qondarma "prezident seçkilərinin" keçirilməsini pisləyir.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Ukrayna XİN-in bu gün yaydığı bəyanatda yer alıb.

Bəyanatda qeyd olunub: "Qondarma "prezident seçkilərinin" keçirilməsi beynəlxalq hüquq normalarına və prinsiplərinə ziddir və onların nəticələri əhəmiyyətsizdir.

Ukrayna növbəti dəfə Azərbaycan Respublikasının suverenliyinə, onun beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünə dəstəyini ifadə edir və Qarabağ münaqişəsinin siyasi-diplomatik yolla nizama salınmasının tərəfdarıdır".

# Moldova XİN Qarabağda erməni separatçılarının qondarma "seçkilərini" pisləyən bəyanat verib

**Moldova Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Qarabağ bölgəsində erməni separatçılarının keçirdiyi qondarma "prezident seçkilərini" pisləyən bəyanat verib.**




AZƏRTAC xəbər verir ki, Moldova XİN-in bəyanatında deyilir: "Moldova Respublikası bu gün, sentyabrın 9-da Qarabağ bölgəsində keçirilən qondarma "prezident seçkiləri"ni beynəlxalq hüququn norma və əsas prinsiplərinə zidd hesab edir və onları tanımır.

Moldova Respublikası Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyi və ərazi bütövlüyünə qəti dəstəyini bir daha vurğulayır".

# Nə qədər istəyirlər, hay-həşir salsınlar

## Onların yeganə yolu reallıqları qəbul etməkdir

**Vətən müharibəsinə qədər hərbi və digər təxribatlara əl atmaqla danışıqlardan yayınan Ermənistan bu "ənənə"sini postmüharibə dövründə də davam etdirir. Bunun nəticəsidir ki, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşma prosesi ciddi çağırışlarla üzləşib. İrəvan bölgədə guya "blokada" və "humanitar böhran"ın mövcudluğu haqqında yalan və əsassız iddialar səsləndirməklə ölkəmiz əleyhinə qarayaxma kampaniyası aparır, hərbi təxribatlarını artırır. Bunlar göstərir ki, bədnam qonşumuz Azərbaycanla sülh müqaviləsi imzalamaqdan hər vəchlə boyun qaçırır.**
**Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.**





### Azərbaycan Ordusu 3 il əvvəlkindən daha güclüdür

Milli Məclisin deputatı Anar İsgəndərov deyib ki, 44 günlük Vətən müharibəsinə qədər keçmiş Qarabağ münaqişəsi haqqında məlumatı olan Qərb dövlətləri, guya, regionda əmin-amanlığın və sülhün bərpasından ötrü Ermənistanın işğal etdiyi torpaqlarda məskunlaşması ilə razılaşmağımızı təlqin edirdilər: "Hətta bəzi dövlətlər bir az da irəli gedərək Ermənistanın müdafiəsinə qalxır, həmin ərazilərin ermənilərin tarixi torpaqları olduğunu iddia edirdilər. Qərbin türk-müsəlman dünyasına nifrətinin nəticəsi olaraq, onlar Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə sevinir, haylara bəraət qazandırırdılar. Tarixi həqiqətləri görməzdən gələrək bizim torpaqlarda ermənilərin yalnız kiçik bir azlıq kimi mövcudluğunu danırdılar. İkinci Qarabağ savaşında Azərbaycan öz torpaqlarını düşmən işğalından azad etsə də, Ermənistan və havadarları hələ də susmaq bilmir, davamlı olaraq yalan və böhtan danışır, təxribatlar törətməyə cəhd edirlər. Bu da, sözsüz ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşma prosesinə ciddi əngəllər yaradır".

Deputat bildirib ki, Ermənistanın "humanitar böhran" və "blokada" iddiaları tamamilə əsassızdır: "Əgər həmin bölgədə, doğrudan da, onların iddia etdikləri kimi, "aclıq" olsaydı, Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən göndərilən yardımı qəbul edər, ya da ən azından yüklərin Ağdam-Xankəndi yolu ilə daşınmasına razı olardılar. Bütün bunlar sübut edir ki, ermənilər ənənəvi olaraq yalan danışmağa davam edirlər. Bu gün Ermənistan saxta iddialarını həyata keçirmək üçün hər yola əl atır. Lakin unudur ki, onun yeganə çıxış yolu ölkəmizin təklif etdiyi təkmil sülh modelini qəbul etmək və münasibətlərin normallaşması üçün sülh sazişi imzalamaqdır. Əks halda, Azərbaycan haylara güzəştə gedən deyil".

Anar İsgəndərovun sözlərinə görə, bu gün Ermənistan rəhbərliyi və Qarabağda yaşayan ermənilər Azərbaycanla bağlı həqiqətləri öncə özləri qəbul edib, sonra da bütün dünyaya etiraf etməlidirlər. Bizim ərazilərimizdə yaşamaq üçün Azərbaycan qanunlarını qəbul etməlidirlər. Əks təqdirdə, vətəndaşımız olmayan şəxslər, ələlxüsus da mənfur ermənilər bizim torpaqlarımızda hansı haqla məskunlaşa bilərlər?! Onlar və himayədarları nə qədər bağırırsa bağırsınlar, bu bizi maraqlandırmır. Əsas odur ki, Azərbaycanın tələb və şərtləri beynəlxalq hüququn norma və prinsiplərinə uyğundur. Bu gün səsini qaldıran dünya ölkələrinə sual oluna bilər ki, bəs 30 il ərzində niyə lal olub Azərbaycanın tapdanmış hüquqlarını müdafiə etmirdiniz?!

Deputat vurğulayıb ki, Ermənistan hər vəchlə sülh müqaviləsini imzalamaqdan yayınsa da, hətta silahlanaraq yeni müharibəyə hazırlaşsa da, bu bizi qətiyyən narahat etmir: "Çünki Azərbaycan Ordusu 44 günlük müharibədə olduğundan da güclüdür. Azərbaycan qalib dövlətdir və hökmü verən də, iddia qaldıran da hər zaman qalib tərəf olur. Ona görə də Ermənistanın tək yolu həm sözdə, həm də əməldə Azərbaycanın ərazi bütövlüyünü tanımaq və Qarabağda yaşayan ermənilərin cəmiyyətimizə reinteqrasiyasıdır. Azərbaycanın işi haqq işidir".

### "Dəmir yumruq" hər an hazırdır

Milli Məclisin deputatı Vüqar Bayramov söyləyib ki, son 30 ildə Ermənistanın müxtəlif və bir-birini inkar edən, ziddiyyətli bəyanatlarının davamlı şahidi olmuşuq: "Ermənistanın ölkəmizin ərazi bütövlüyünü tanıdığını bəyan etməsinə baxmayaraq, xüsusilə son vaxtlar baş verən hadisələr, "humanitar böhran" uydurmaları təsdiq edir ki, bu gün İrəvan praktiki olaraq sülh müqaviləsinin bağlanmasına deyil, vəziyyətin daha da gərginləşməsinə çalışır. Azərbaycan isə sülh prosesinə sadiqdir və sülhün əldə edilməsi üçün mümkün olan bütün səylərini birləşdirib".

Deputat qeyd edib ki, Azərbaycan üçün sülhün əldə edilməsi yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür: "Bunun başqa alternativi yoxdur. Ermənistanın öz mövqeyini mütəmadi dəyişməsinə baxmayaraq, Azərbaycanın bu məsələdə vahid mövqeyi mövcuddur. Azərbaycan ərazi bütövlüyünün və suverenliyinin tanınması şərtilə, Ermənistanla sülh müqaviləsi bağlamağa tam hazırdır. Qalib tərəf olmasına rəğmən, müharibədən dərhal sonra Hayastana sülh təklif etməsi Azərbaycanın regionda sülhə və əməkdaşlığa xüsusi diqqət göstərdiyini sübut edir. Lakin unutmaq olmaz ki, Ermənistanda revanşist meyillər güclənərsə, bizim "dəmir yumruq" yerindədir.

Vüqar Bayramov əlavə edib ki, istənilən revanşist meyilləri dağıda biləcək güclü ordumuz və hər zaman həmrəylik nümayiş etdirən xalqımız Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin yanındadır. Şanlı ordumuz istənilən təxribat cəhdlərinin qarşısını almağa və təhdidlərə cavab verməyə qadirdir.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ermənistanın Rusiyaya buynuz göstərməsi təəccüblü görünmür

## Çünki bu, çoxsifətli hayların xarakteridir

**Ermənilərin "əbədi" dostu olmayan, hər an xəyanət etməyə, riyakarlıq göstərməyə hazır kimi tanınması heç də təsadüfi deyil. Erməni şairi Yeqişe Çarentsu "bizdə ikiüzlülük hələ ana bətnində yaranır" ifadəsi ilə erməniliyin "siyasi portretini" yaradıb. Biz bu gün Nikol Paşinyanın timsalında bu obrazın ən xırda cizgilərini belə görməkdəyik. 44 günlük müharibə zamanı Rusiya Prezidenti Vladimir Putini aramsız zəngləri ilə bezdirib atəşkəsə nail olması üçün yalvaran Nikolun bu gün gücdən düşmüş Rusiyaya "buynuz" göstərməsində təəccüblü heç nə yoxdur...**

Rusiya-Ukrayna savaşında bu ölkənin istədiyinə nail ola bilməyib dünya siyasətinə təsir göstərmək imkanının zəifləməsi Ermənistanın əlinə göydəndüşmə bir fürsət verdi. Şəraitə uyğun olaraq qabığını dəyişən ilan kimi erməni baş nazir dərhal "atını keçiddə dəyişmək" barədə qərar verdi. Nikolun Roma statutunu ratifikasiya üçün parlamentə göndərməsi, Rusiyanın Qarabağda olan sülhməramlı kontingentini vəzifələrini yerinə yetirməməkdə ittiham etməsi və İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində "bir gün yuxudan oyanacağıq ki, Rusiya artıq regionu tərk edib" deməsi Ermənistanın Rusiya ilə vidalaşmaq niyyətindən xəbər verir. Görünən budur ki, Ermənistan "təhlükəsizliyinin təminatı üçün" daha güclü dövlətlərlə əməkdaşlıq etmək niyyətindədir. Daha doğrusu, Cənubi Qafqaza yeni dövlətləri pərçim etmək istəyir. Ermənistan bu prosesdə baş aktor vəzifəsini öz üzərinə götürüb. Prosesin başlanğıcı yaxın gələcəkdə daha ciddi, fərqli hadisələrə şahid olacağımızdan xəbər verir. Mətbuatda gedən məlumatların həqiqiliyinə inansaq, Fransa Rusiyanın Gümrüdəki 102 saylı hərbi bazasının çıxarılıb, əvəzində özünün hərbi kontingentinin bu ölkəyə yerləşdirilməsi haqqında BMT-yə qətnamə lahiyəsi təqdim etməyə hazırlaşır. Eyni zamanda Ermənistan 11-20 sentyabr tarixlərində ABŞ ilə birlikdə keçiriləcək "Qartal tərəfdaşı 2023" təlimlərinə hazırlaşır. Artıq ABŞ-nin göndərdiyi 85 hərbçi Ermənistandadır. Hərbi ekspertlərin fikrincə, ABŞ-nin Ermənistana göndərdiyi hərbçilərin böyük bir qisminin təlimdən sonra təlim-tədris, təşkilati işlər, hərbi məsləhətçi, müşavir və s. adlar altında Ermənistanda qalmaq və fəaliyyət göstərmək ehtimalı çox böyükdür. Hətta Ermənistanda qalacaq Amerika hərbçilərinin AB-nin oradakı "mülki missiya" adı ilə pərdəarxası oyun oynayıb, fərqli vəzifələr yerinə yetirən üzvləri ilə birlikdə fəaliyyət göstərəcəkləri də proqnozlaşdırılır. Paşinyan hökumətinin AB missiyasını ölkəyə dəvət etməsini, NATO-nun Avropa İnkişaf Komitəsinin sədri Günter Fehlingerin İrəvanın təşkilata üzvlük təklifini, ABŞ ilə birgə keçiriləcək təlimi və digər məsələləri göz önünə aldığımız zaman artıq Qərbin Cənubi Qafqazda Ermənistan üzərindən Rusiyaya qarşı ikinci cəbhə açdığı qətiyyən şübhə doğurmur.

Baş nazir Nikol Paşinyan hökumətin sentyabrın 7-də keçirilən iclasında deyib ki, Ermənistan 2021-ci il dekabrın 14-də Brüsseldə, 2022-ci il oktyabrın 6-da Praqada və 2023-cü ilin mayında Brüsseldə əldə edilmiş razılaşmalara, habelə onun Rusiya və Azərbaycan prezidentləri ilə 2020-ci il noyabrın 10-da imzaladığı üçtərəfli bəyanata sadiqliyini vurğulayıb. Ancaq o əlavə edib ki, sülh sazişi beynəlxalq mexanizm çərçivəsində Bakı-Xankəndi dialoqu və Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin həlli üçün Laçın yolunun açılması əsasında bağlanıla bilər. Baş nazir razılaşmalara "sadiq" olduğu haqqında açıqlaması ilə demək istəyir ki, yeni "müharibə" tərəfdarı deyil, onun davası Rusiya ilədir. Məqsəd Amerika və Fransa ilə əlbir olub Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaqdır.

Nikol Paşinyanın "Qərbin adamı" olduğunu, ona "etibarın edilməməsini" Rusiya dəqiq anlayırdı. Amma Qarabağ problemi üzərindən Ermənistanda siyasi hakimiyyətə gələn Koçaryan və Sarkisyan cütlüyünün rüşvətxorluq, talançılıq, yerlibazlıq yolu ilə bu ölkəni talan etmələri, əhalini yoxsulluq vəziyyətinə gətirmələri əhalidə Qarabağ ermənilərinə qarşı qəzəb və nifrət hissi yaratmışdır. Bundan istifadə edən Paşinyan hakimiyyətə gəlib dayaqlarını möhkəmlədə bildi. Rusiya onun hakimiyyətə gedən yolunun qarşısını ala bilmədi. Eyni zamanda Paşinyan Rusiya ilə də ikibaşlı oyun oynamağı bacardı. Son günlər Nikolun Rusiyaya aktiv hücumlarına qarşı tərəf təmkin göstərirdi. Bəzi siyasi ekspertlər bunu Rusiyanın Ukrayna ilə savaşda zəifliyinin əlaməti olduğunu qeyd etsələr də, bu ölkənin Cənubi Qafqazda Qərbə uduzmaq niyyəti olmadığını sezməmək mümkün deyildi. Rusiyanın təmkinli davranışı ilə heç də "şıltaqlıq"lara sona kimi dözüb münasibətləri sakit, diplomatik yolla həll etmək niyyətində olduğunu demək olmaz.

Sentyabrın 7-də Ermənistanın Rusiyadakı səfiri Vaqarşak Arutyunyan həmin ölkənin Xarici İşlər Nazirliyinə çağırılaraq ona İrəvanın qeyri-dost hərəkətləri ilə əlaqədar nota təqdim edilib. Etiraz notasında Roma statutunun ratifikasiya prosesinin başlanmasının, baş nazir Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyanın Kiyevə səfəri və Kiyev rejiminə humanitar yardımın göstərilməsinin və ABŞ hərbçilərinin iştirakı ilə hərbi təlimlərin keçirilməsinin, Ermənistanın Milli Məclisinin sədri A.R.Simonyanın sentyabrın 6-da Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovaya ünvanladığı təhqiramiz bəyanatlarının ("hansısa katibə" ifadəsi - red.) qəbuledilməzliyi bildirilib. Rəsmi Moskva hesab edir ki, Rusiya və Ermənistan müttəfiq olaraq qalır və tərəfdaşlığın inkişafı və möhkəmləndirilməsi ilə bağlı bütün razılaşmalar iki ölkə xalqlarının mənafeyi naminə tam şəkildə həyata keçiriləcək. Hələlik hər iki tərəf arasında gərginlik "söz atışması" ilə gedir. Sona kimi belə davam edəcəyi, Paşinyanın geri çəkiləcəyini düşünmək isə sadəlövhlük olardı. Görünür, "Qərbin adamı"na ikili oyunlara son qoymaq, aldığı tapşırıqları tez bir zamanda yerinə yetirmək əmri verilib. Hakimiyyətinin ömrünü uzatmağa çalışan Nikol Qərbdən gələn göstərişləri icra etmək məcburiyyətindədir.

Qeyd edək ki, Paşinyanın Rusiyaya qarşı sərt mövqeyi ölkəsində rusiyapərəst qüvvələrin fəallaşması ilə müşahidə olunur. Əllərində milyardlar cəmləşən Koçaryan, Sarkisyan cütlüyünün xalqdan oğurladıqları pulları yenidən xalqa qaytarıb qarışıqlıq salaraq, Nikolu hakimiyyətdən endirməyə güclərinin çatıb-çatmayacağı da ciddi müzakirə olunan mövzulardandır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Erməni separatizmi məhvə məhkumdur

## Bəzi qərəzli təşkilatların və ölkələrin dəstəyi ilə təhlükəli avantüraya qapılması Ermənistanın özünə baha başa gələcək

**Vətən müharibəsindən ötən üç il müddət ərzində Ermənistan ilə Azərbaycan arasında sülh əldə olunmamasının yeganə səbəbi İrəvanın hələ də Azərbaycana qarşı ərazi iddiası güdməsi, separatizmi dəstəkləməsidir.**

Qarabağ Azərbaycandır həqiqətini sülh prosesi çərçivəsində keçirilən üçtərəfli görüşlərdə rəsmən etiraf edən Ermənistan hələ də bunu imzası ilə təsdiq etməkdən özünəməxsus müxtəlif "taktika"ları ilə yayınır.

Azərbaycanın suveren ərazisində ikinci erməni dövləti yaratmaq kimi sərsəm iddiaların arxasınca düşərək, bu separatizm xülyalarına müxtəlif beynəlxalq qurum və KİV-i, ölkələri də alət etməyə çalışan Ermənistan, təəssüf ki, bəzi hallarda buna nail olmağı da bacarır.

Erməni lobbisi pul hərisinə çevrilmiş riyakar ölkələr və qurumlar vasitəsilə Azərbaycana qarşı qarayaxma kampaniyası aparır, onların əli ilə separatizmi təbliğ edir ki, bu, ümumilikdə dünya ölkələri üçün təhlükəli tendensiyadır.

Hazırda elə Qərb ölkələrinin bir çoxunun separatizmlə üz-üzə olduğunu nəzərə alsaq, ermənilərin bu təhlükəli oyunlarına onlardan dəstək görmələri də ayrıca sual doğurur...

### Ermənistanın Avropadakı "vəkili"

44 günlük müharibədə Azərbaycanın qələbəsini heç cür həzm edə bilməyən Fransa ötən müddət ərzində ermənipərəst mövqe sərgiləyərək, ölkəmizə qarşı düşmənçilik aparır. Separatizmə dəstək nümayiş etdirən bu ölkənin, guya, Laçın yolunun bağlanması, Xankəndidə humanitar böhran yaşanması səbəbindən bölgəmizlə sərhəddə Parisin xanım merinin müşayiəti altında humanitar yardım göndərməsi isə riyakarlığının açıq göstəricisi oldu. Bu ölkənin BMT TŞ-də Azərbaycana qarşı qətnamələr qəbul etdirmək üçün necə "can qoyduğu" da hər kəsə bəllidir. Erməni lobbisinin "əmri" ilə bu kimi çirkin əməllər törədən Fransa Qarabağda erməni separatizminin kök salmasına çalışaraq, beynəlxalq hüququ ayaqlar altına atır.

İyulun 25-də Çinin "China Media Group" Media Korporasiyasına verdiyi müsahibəsində Fransanın Ermənistanın ən böyük vəkilinə, Avropada ən iri anti-Azərbaycan mənbəyinə çevrildiyini söyləyən Prezident İlham Əliyev də vurğuladı ki, Korsika dilinə qadağa qoyan, Korsikada öz müqəddəratını təyinetmə hərəkatını qəddarcasına boğan Fransa Qarabağda ermənilərin "öz müqəddəratını təyin etmələrini" təşviq edir: "Bu necə ola bilər? Müharibə zamanı siyasi təcavüz bütün sərhədləri aşanda dedim ki, əgər onlar "Dağlıq Qarabağ respublikası"nı haradasa qurmaq istəsələr, qoy öz ərazisində qursunlar. Məsələn, çoxlu erməninin yaşadığı Marsel şəhərinin ətrafında qurub, "Dağlıq Qarabağ respublikasını" orada elan etsinlər, biz də tanıyaq".

### Ağ Evdən qara əməl

Sentyabrın 6-da ABŞ Konqresinin Tom Lantos İnsan Hüquqları Komissiyasında Azərbaycan əleyhinə dinləmələr təşkil olunması ABŞ-nin Azərbaycana qarşı ikili standartlarla yanaşdığını ortaya qoydu. Ağ Evin bu riyakar davranışı erməniperəstliyini, Azərbaycana qarşı qərəzli mövqe tutduğunu açıq şəkildə nümayiş etdirdi.



Azərbaycan BMT TŞ-nin 4 qətnaməsini döyüş meydanında özü yerinə yetirərək torpaqlarını işğaldan qurtarıb. Üçrəngli bayrağını bütün sərhədləri boyu dalğalandıraraq ərazi bütövlüyünü təmin edib.

Ermənistana 5 baza prinsipindən ibarət təkmil sülh modeli təklif edən Azərbaycan paralel olaraq Qarabağda yaşayan erməni sakinlərin reinteqrasiyası prosesi istiqamətində ardıcıl və əməli addımlar atıb. Onları danışığa dəvət edib, alternativ yollar göstərib, humanitar yardım göndərib.

Lakin bütün bunlar Ermənistan və hərbi xunta tərəfindən qəbul edilməyib, əngəllənib. Əvəzində Azərbaycanın suveren ərazisində separatizmin yuva salması üçün erməni yalan maşını işə salınıb.

### CNN də erməni yalanlarına alət olub

Erməni lobbisinin idarə etdiyi bu çirkin kampaniyada Qərb mediasının bəzi simaları da böyük həvəslə iştirak edirlər. Erməni yalanlarını yayan beynəlxalq KİV-in siyahısında BBC, "Le Monde" qəzeti, o cümlədən "The New York Times" nəşri və CNN də var.

Bu media qurumları son dövrlər erməni yalanlarına alət olublar və bir-birinin ardınca qərəzli, obyektivlikdən uzaq xəbərlər yaymaqda davam edirlər. Jurnalistikanın ali dəyərlərini heçə sayan sözügedən beynəlxalq media qurumları erməni separatizmini təbliğ edən verilişlər hazırlayır, yazılar nəşr edirlər. Bir ağızdan Laçın yolunun "blokada"da olmağından, Xankəndidə insanların "aclıq" çəkməsindən dəm vururlar, bir sözlə, erməni yalan-palanlarını özlərinə "çörək təknəsi" ediblər. Bu orqanlarda yayımlanan məqalələrin hamısının arxasında erməni lobbisinin dayandığı çox açıq görünür.

Torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalı, milyona yaxın insanımızın qaçqın və məcburi köçkün düşməsi, ermənilərin vətəndaşlarımıza qarşı kütləvi qırğın, soyqırımı törətmələri ilə bağlı bu sadaladığımız media qurumlarında heç zaman materiallar verilməyib. Naxçıvan əhalisinin 30 ildən çox blokada şəraitində yaşaması da nədənsə bu beynəlxalq KİV-də işıqlandırılmayıb.

Amma bu qərəzli media orqanlarının jurnalistləri üç-beş erməninin, guya, "aclıq" yaşaması xəbərindən böyük sarsıntı keçiriblər, dərin depressiyalara qərq olublar. Gecə-gündüz düşündükləri, qələmə aldıqları, çəkdikləri, yayımladıqları bircə xəbər var ki, görəsən, Laçın yolundakı "blokada"nı yarıb, Xankəndidə "acından qırılan" ermənilərə necə bir tikə çörək çatdıra bilərlər...

### Bu yol hər zaman açıqdır

2023-cü il sentyabrın 8-də Azərbaycan Xarici İşlər Nazirliyində nazir Ceyhun Bayramov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun iştirakı ilə ölkəmizdə akkreditə olunmuş diplomatik korpus üçün brifinq keçirilib.

Brifinq zamanı məlumat verilib ki, Ermənistanın törətdiyi təxribatlara baxmayaraq, tibbi evakuasiya və digər təxirəsalınmaz məqsədlər üçün Laçın nəzarət-buraxılış məntəqəsindən keçid bu günə qədər davam edir. İyunun 15-dən BQXK bu istiqamətdə 27 əməliyyat keçirib, 312 erməni sakin 208 nəfərin müşayiəti ilə (ümumilikdə 520 nəfər) Ermənistana gedib, 380 nəfər isə müalicəsi başa çatdıqdan sonra Qarabağa qayıdıb. Bu əməliyyatlar zamanı hər iki istiqamətdə 425 BQXK nəqliyyat vasitəsinin keçidi qeydə alınıb. Qarabağa qayıdarkən onlar dərman, uşaq qidası kimi zəruri malları da özləri ilə gətirməkdədirlər.

Yəni Ermənistanın, onun "bacılıq ölkələr"inin, bəzi riyakar beynəlxalq qurum və KİV-in iddiasının əksinə, Laçın yolunda heç bir blokada yoxdur, Xankəndidə aclıq yaşanmır. Digər tərəfdən də rəsmi Bakı hər zaman bəyan edir ki, ölkəmizdəki erməni azlığının hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyası əsasında lazımınca qorunacaq.

### Paşinyan riyakarlığından əl çəkmir

Vətən müharibəsindən sonra Ermənistanın Azərbaycana qarşı törətdiyi siyasi, hərbi və digər təxribatları İrəvanın sülhdən yayındığını göstərir. Ermənistanın məqsədi Azərbaycan ərazisində separatizmi qoruyub saxlamaqdan ibarətdir və bu məqsədlə də bacardıqca vaxtı uzatmağa, yalanları ilə beynəlxalq dəstək qazanmağa çalışır.

Fransa başda olmaqla bəzi qərəzli ölkələrin, beynəlxalq qurum və KİV-in İrəvanın separatizm meyillərini dəstəkləməsi isə Ermənistanı daha da iştahalandırır, Qarabağda hansısa qondarma qurum yaratmaq kimi cürətə salır.

XİN-də keçirilən brifinqdə də bildirilib ki, Azərbaycanın Qarabağ bölgəsi daxil olmaqla ərazi bütövlüyünün tanıması ilə bağlı əvvəlki bəyanatına baxmayaraq, Ermənistanın baş naziri Azərbaycan ərazilərində qurulmuş qondarma quruluşun yaradılmasının "ildönümü" münasibətilə "təbrik mesajı" verərək daha bir təxribatçı addım atıb.

Ermənistan baş naziri bir daha "erməni sakinlərin öz müqəddəratını təyinetmə hüququ"na istinad edərək, Ermənistanın bu sakinlərlə bağlı məsələlərə onların təhlükəsizliyi və hüquqları bəhanəsi altında müdaxiləyə davam edəcəyini təsdiqləyib.

Lakin beynəlxalq hüquqa zidd əməlləri ilə sülhdən yayınması və separatizmə dəstək verməsi elə Ermənistanın özü üçün geri dönüşü olmayan ağır nəticələrlə sonuclana bilər. Çünki Azərbaycan heç zaman suveren ərazisində separatizmin at oynatmasına imkan verməyəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Qarabağın "yaşıl enerji"si

## Bölgədə alternativ enerjinin istehsalı və ixracı dövlətin əsas prioritetlərindən biridir

**Dünya Azərbaycanın qüdrətinə yenə şahidlik edir. 44 günlük Vətən müharibəsində 30 il işğal altında qalan torpaqları azad edəndən sonra indi də həmin ərazilərdə sürətli bərpa-quruculuq işləri həyata keçirilir və dünyanın gözü qarşısında Qarabağ və Şərqi Zəngəzur günbəgün abad diyara çevrilir.**






Məlum olduğu kimi, düşmən işğal etdiyi ərazilərdə daşı daş üstündə qoymamışdı. "Viran edilmiş torpaq" taktikasından istifadə edən ermənilərin əsas məqsədi həmin ərazilərin əsl sahiblərinin bura dönüşünün qarşısını almaq idi. Hazırda düşmən tərəfindən sərhədyanı ərazilərdə tez-tez təxribatların törədilməsinin bir səbəbi də bununla bağlıdır. Amma əbəs. Əbəs ona görə ki, bizi ata-baba yurdumuza dönməkdən heç nə çəkindirə bilməz, xüsusən də dövlətimiz bu Böyük qayıdış üçün Vətən savaşı qurtaran andan tədbirlər görürsə.

Böyük qayıdışın yolu infrastruktur layihələrindən keçir. Prezident İlham Əliyevin dediyi kimi, doğma yurdlarından didərgin düşən soydaşlarımız böyük çətinliklərlə üzləşib və indi onların ata-baba torpaqlarında ləyaqətlə, yaxşı şəraitdə yaşamağa haqları var. Yeni yaşayış yerlərinin dünya standartlarına uyğun təzədən tikilməsi, "ağıllı" kənd və şəhərlər layihələrinin icrası da məhz bu hədəfə hesablanıb.

Əhəmiyyətli rol oynayan əsas infrastruktur layihələrindən biri də bölgənin elektrik enerjisi ilə təminatıdır. Bu gün qarşıdakı məqsəd təkcə yerli imkanlardan istifadə edib bölgəni "yaşıl enerji" ilə təmin etmək deyil. Əsas məqsəd həm də daha çox alternativ enerji istehsal edərək onun ixracına nail olmaqdır.

Bunun üçünsə ilk növbədə yerli dağ çaylarının imkanlarından istifadə edilir. Artıq Laçın rayonunda Həkəri çayının ən böyük qolu olan Hoçaz çayı üzərində yerləşən və ermənilər tərəfindən tamamilə dağıdılan 14,25 meqavat gücündə "Ağbulaq", 8,25 meqavat gücündə "Mişni" və 6 meqavat gücündə "Alxaslı" Su-Elektrik stansiyaları Prezident İlham Əliyevin tapşırığı ilə yenidən qurulub. Hazırda "Ağbulaq" Su-Elektrik Stansiyasında son tamamlama işləri aparılır. "Mişni" və "Alxaslı" Kiçik Su-Elektrik stansiyalarında isə işlər başa çatdırılıb. Bunlardan əlavə, "Ağbulaq", "Alxaslı" və "Mişni" stansiyaları ilə yanaşı, Laçın rayonunda ümumi gücü 40,5 MVt, illik enerji istehsalı potensialı 120 milyon kilovat-saat olan 5 kiçik su-elektrik stansiyası yenidən qurularaq istismara verilib. 4 stansiyanın yenidən qurulması isə davam edir. Gələn ilin birinci rübündə Laçın rayonunda ümumi gücü 65,5 MVt, illik elektrik enerjisi istehsal potensialı 194 milyon kilovat-saat olan 9 su-elektrik stansiyası fəaliyyət göstərəcək.

Amma bunlar da hələ hamısı deyil. Kəlbəcər rayonunun qərbində Tərtər çayı üzərində yerləşən 8,33 meqavat gücündə "Çıraq-1" və Qaraarxac çayı üzərində 3,6 meqavat gücündə "Çıraq-2" Kiçik Su-Elektrik stansiyaları "Azərenerji" ASC tərəfindən tamamilə yenidən qurularaq istismara verilib. Burada çayın 50 faiz təminatı nəzərə alınmaqla ekoloji normanın saxlanılması üçün derivasiya boruları subasardan hündür hissədə quraşdırılıb. Həmçinin sel suları nəzərə alınaraq 1750 metr mütləq yüksəklikdə yerləşən idarəolunan baş suqəbuledici qurğu tikilib, eləcə də 7 kilometr uzunluğunda derivasiya boruları yenidən çəkilib.

"Çıraq-1" və "Çıraq-2" stansiyalarının hər biri üçün maşın zalı tikilib, Avropanın aparıcı şirkətlərinin istehsalı olan müasir ekoturbinlər, generatorlar, idarəetmə, rele mühafizəsi və avtomatika panelləri quraşdırılıb. "Çıraq-1" Kiçik Su-Elektrik Stansiyasının ərazisində yeni 110 kV-luq açıq paylayıcı qurğu inşa edilib. 35 kilometr uzunluğunda 35 kV-luq "İstisu" elektrik verilişi xətti təzədən qurularaq yeni yarımstansiyaya qoşulub, optik kabel xətti çəkilib. Bu yarımstansiya "Çıraq-1", "Çıraq-2" və "Soyuqbulaq" Kiçik Su-Elektrik stansiyalarında istehsal edilən elektrik enerjisinin ölkənin enerjisistemինə ötürülməsi üçün qovşaq funksiyasını daşıyır.

Onu da bildirək ki, "Çıraq-1", "Çıraq-2" və "Soyuqbulaq" Kiçik Su-Elektrik stansiyalarından əlavə, bu günə kimi Kəlbəcər rayonunda 4,4 meqavat gücündə "Kəlbəcər-1", 6,3 meqavat gücündə "Qamışlı" və 3,4 meqavat gücündə "Meydan" Kiçik Su-Elektrik stansiyaları yenidən qurularaq istismara verilib. Hazırda Kəlbəcərdə 5 yerdə ümumi gücü 48,3 meqavat olan kiçik su-elektrik stansiyalarının tikintisinə başlanılıb. Bununla da 2024-cü ilin birinci rübündə Kəlbəcər rayonunda ümumi gücü 75,5 MVt, illik enerji istehsal potensialı 230 milyon kilovat-saat olan 10 kiçik su-elektrik stansiyası fəaliyyət göstərəcək.

Bu su-elektrik stansiyalarında ekoloji normalar tam qorunur. Bütün layihələr icra edilərkən çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması məqsədilə xüsusi balıqkeçirici qurğular tikilib. Avropanın yaşıl sertifikatlı avadanlıqlarından istifadə etməklə çay ekosistemi, o cümlədən flora və fauna tam qorunur, çayların məcralarında ekoloji axımdan iki dəfə artıq miqdarda su saxlanılmaqla aşağı axım zonasının su təminatı, eyni zamanda məcraaltı su ehtiyatının formalaşması təmin olunub. Bununla yanaşı, bu işlər görülərkən meşələrin qırılmasına, qayaların dağıdılmasına yol verilməyib, çay məcralarında hidromorfoloji dəyişikliklər edilməyib. Derivasiya boru xətləri çəkilən zaman beynəlxalq təcrübəyə uyğun xüsusi konstruksiyalardan istifadə edilməklə ətraf mühitə təsirlər minimuma endirilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Ermənistan kimə arxalanır?

## Bu ölkənin müharibə hazırlığı özünə ağır zərbə olacaq

**Ermənistanın təxribatları getdikcə artır. Son zamanlar separatçıların mövqelərimizi atəşə tutmaları, fortifikasiya qurğularının qurulması, mövqelərimizə yaxınlaşmaq cəhdləri Ermənistanın müharibəyə hazırlaşdığını göstərir. Qəribədir ki, 2020-ci ilin payızında məğlub olaraq kapitulyasiya aktını imzalamağa məcbur qalan Ermənistan bütün bunların onlara yaxşı heç nə vəd etmədiyini anlamır.**





Bu müharibə hazırlığı hayları yeni məğlubiyyətə aparır. Dəfələrlə Ermənistana xəbərdarlıq edilsə də, görünən odur ki, bu ölkə yenidən məğlubiyyətin acısını dadmaq, "dəmir yumruğ"un növbəti zərbəsini görmək istəyir.

Siyasi ekspertlər də hesab edirlər ki, Ermənistanın müharibə hazırlığı bu ölkəyə baha başa gələ bilər.

### Ermənistanın Azərbaycana "güc nümayişi" daxili auditoriya üçündür

Milli Məclisin deputatı Arzu Nağıyev bildirib ki, ermənilərin bu hazırlığı həm daxili, həm də xarici auditoriya üçün nəzərdə tutulmuş siyasi gedişlərdir. Ermənistan son vaxtlar Rusiyanın guya Cənubi Qafqazdan getməsi, həmçinin rusiyayönümlü bloqçuların həbs olunması ilə bağlı bəyanatlar verir. Bunlar Rusiya əleyhinə olan bəyanatlardır ki, onların da iki məramı, məqsədi var. Birincisi Qərbdən yararlanmaq, ikincisi isə daxili auditoriyada anti-Rusiya məsələlərini daha da qabartmaqdır. Nikol Paşinyanın verdiyi bəyanatlar bir daha göstərir ki, bunlar xaricdən olan havadarları ilə bağlı problemləri həll etmək üçün atılan addımlardır. "Məlumdur ki, kütləvi informasiya vasitələrində Fransa prezidenti Makronun, guya, Ermənistana səfərinin planlaşdırıldığı bildirilir. Bu ərəfədə qoşunların yerdəyişməsi və digər hərəkətləri göstərmək üçün bu addımlar atılır. Digər məsələ Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü kimi Rusiyanı bu oyuna qatmaqdır. Bilirlər ki, Azərbaycan tərəfi ermənilərin təxribatına adekvat cavab verəcək. Daha sonra Qərbdən gəlmiş vizual kəşfiyyatçılar, müşahidəçilər də özlərinə uyğun şəkildə müəyyən arayışları Avropada olan qurumlara məruzə edəcəklər", - deyə deputat əlavə edib.

A.Nağıyev deyib ki, bir məsələ də separatçıların keçirəcəyi qondarma prezident seçkiləri idi. Əsas məsələ isə daxili auditoriyanı sakitləşdirərək silah-sursatlarının olduğunu göstərməkdir.

Zəngəzur dəhlizinin açılmasının qarşısını almaq üçün ermənilərin həmin ərazidə ciddi problemlər yaratmağa çalışdığını deyən deputat bildirib ki, haylar dəhlizin açılmasının məhz onların silahlı qüvvələrindən asılı olduğunu göstərmək istəyirlər: "Bütün bunlar absurd məsələlərdir. Ermənistan öz kütləvi informasiya vasitələrində tirajlayır ki, guya Azərbaycan müharibəyə hazırlaşır, onun qarşısını almaq üçün bu addımları atırlar. Bir daha qeyd etmək istəyirəm ki, bütün bunlar həm daxili, həm də xarici siyasət üçün atılan addımlardır. Daxildə öz vətəndaşlarını sakitləşdirmək, eyni zamanda, qondarma qurumla həmrəy olduqlarını göstərmək və xaricdə də bunları maliyyələşdirən, humanitar şoular yaratmağa çalışan havadarlarına bir daha özlərini göstərməkdir".

A.Nağıyev vurğulayıb ki, Ermənistan Azərbaycana "güc" nümayiş etdirmək istəsə də, bu, alınan deyil. Həmçinin Amerika Birləşmiş Ştatları ilə birgə təlimlərin keçirilməsi Rusiyaya heç də xoş deyil. Artıq müəyyən anonslar var ki, Rusiyanın xüsusi təyinatlı hərbi qüvvələri həmin əraziyə gəlib. Ermənilər qəsdən şayiələr yayırlar ki, guya Rusiyanın dediyi kimi hərəkət olmasa, burada hansısa çevriliş ola bilər. Bunlar hamısı siyasi gedişlərdir. İstər ermənilər, istərsə də himayədarları birmənalı şəkildə anlamalıdırlar ki, Azərbaycanın daxili və xarici siyasəti dönməzdir. Biz 44 günlük müharibədə onların hansı orduya sahib olduğunu gördük və özləri haqqında yaratdıqları mifi darmadağın etdik. Eyni zamanda onlar da başa düşdülər ki, haqq yolunda olan, ərazi bütövlüyü ilə bağlı problemini özü həll edən Azərbaycana kənardan heç kim müdaxilə etmir və heç kim bu işə qarışa bilməz. Buna görə də ermənilər daha ağıllı siyasət yürütməli və başa düşməlidirlər ki, istənilən anda atılan hər bir mərminin, hər bir güllənin cavabı layiqincə, dəfələrlə artıq veriləcək.

### Ermənistan yeni savaşa cəhd etsə, daha ağır məğlubiyyətə düçar olacaq

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qeyd edib ki, 2020-ci ildə Azərbaycan öz torpaqlarını erməni işğalından azad etdikdən sonra ölkəmizə qarşı yeni cəbhələrin həm hərbi, həm də siyasi mənada formalaşdırılması istiqamətində canlanmanın şahidi olduq. Ermənistan tərəfi Azərbaycan torpaqlarını həmişəlik işğal altında saxlaya biləcəyini hesab edirdi. Haylar bununla da yanılırdılar: "Ermənistanda öz orduları haqqında yanlış təsəvvürlər, miflər formalaşmışdı. Azərbaycan Ordusu 2020-ci ilin payızında bu mifi darmadağın etdi, Ermənistan ordusunu ağır məğlubiyyətə uğratdı. Ermənistan tərəfi düşündü ki, indiki halda zaman udmalıdır və ordusunu yenidən müharibəyə hazırlamalıdır. Xəbər verildiyi kimi, ötən üç il ərzində revanşçılar Ermənistanda kifayət qədər fəaldırlar, onlar təxribatlar törədirlər. Paşinyan olduqca qeyri-stabil insandır. O, mövqelərini tez-tez dəyişməyi bacarır və təbii ki, müvafiq olaraq da siyasi təfəkkürü olduqca zəifdir".

Deputat hesab edir ki, məsələnin digər tərəfi Paşinyanın idarəolunan fiqur olması və onu hakimiyyətə gətirənlər hansı təlimatları verərsə, ona uyğun davranmasıdır. Cənubi Qafqaz regionunda geosiyasi konfiqurasiya Ermənistanın və onun arxasında dayanan qüvvələrin gözləntiləri ilə tam ziddiyyət təşkil etməkdədir. Azərbaycan öz gücü hesabına yeni geosiyasi reallıqlar yaradıb münaqişə vəziyyətini aradan qaldırıb. Münaqişə kənar dairələrə imkan verirdi ki, Cənubi Qafqaz regionuna hər zaman müdaxilə etsinlər, proseslərə təsir göstərsinlər və özlərinin geosiyasi ambisiyalarını həyata keçirsinlər. 2020-ci ilin payızında Azərbaycan onların Cənubi Qafqaz regionunda məkrli niyyətlərinin, maraqlarının həyata keçirilməsi imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırdı.

Elşad Mirbəşiroğlunun fikrincə, həmin dairələr hər vəchlə Azərbaycan ərazisində yaşayan ermənilərin vəziyyəti üzərindən gərginliyi saxlamağa çalışırlar. Onlar "beynəlxalq platformalarda Laçın yolu, Azərbaycan ərazisindəki ermənilərin vəziyyəti ətrafında lüzumsuz müzakirələrə nail olurlar. Lakin bu, Azərbaycanın mövqelərinə heç bir təsir göstərmir. Avqustun 16-da BMT Təhlükəsizlik Şurasında Laçın yolu ətrafında və ermənilərin vəziyyəti ilə bağlı müzakirələrin baş tutması bir tərəfdən BMT-nin artıq bir alət quruma çevrildiyini göstərdisə, digər tərəfdən Azərbaycanın gücünü, haqlı mövqelərinin keçərliliyini nümayiş etdirdi. Yəni Azərbaycan həm hərbi cəhətdən, həm siyasi, həm də diplomatik cəhətdən təcavüzkar Ermənistandan qat-qat güclüdür", - deyə E.Mirbəşiroğlu əlavə edib.

Deputat vurğulayıb ki, hətta onu dəstəkləyən siyasi dairələr də Ermənistanı ağır vəziyyətdən çıxara bilmirlər. İndiki şərtlər daxilində Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamalıdır, çünki manevr imkanları yoxdur. Əgər yenidən müharibə olarsa, ağır məğlub durumda sülh müqaviləsi imzalayacağı təqdirdə Paşinyan hakimiyyətini itirməli olacaq. Ermənistanın daxilindəki işğalçı təfəkkürlü insanlar bundan istifadə edəcək və Paşinyanı hakimiyyətdən devirəcəklər. Təbii ki, onlar da öz marginal maraqları üçün Qarabağ kartından istifadə edəcəklər. Əslində, Ermənistanda hakimiyyət uğrunda vəhşi mübarizə getməkdədir. Bu da ermənilərin bacardığı tək mübarizə üsuludur. Onlar işğalçı, təcavüzkar, terrorçu, bir sözlə, mağara təfəkküründən uzağa gedə bilməyiblər. Məsələnin digər tərəfi ondan ibarətdir ki, ermənilər tarixdən dərs götürməyiblər. Yəni II Qaregin iki il bundan əvvəl özü etiraf etdi ki, kiçik xalqıq, qırıla-qırıla gedirik. Yəni özləri görürlər ki, başqalarının torpaqlarına, ərazi bütövlüyünə qəsd etməklə hər zaman cəzalandırılıblar.

E.Mirbəşiroğlu hesab edir ki, indiki şərtlər daxilində Ermənistanın yenidən cəbhə boyunca hərbi qüvvələrini cəmləşdirməsi, xaricdən silahlar alması, Fransanın təhriki və yaxud yaxından dəstəyi ilə ölkədə yenə hərbi atmosferin formalaşdırılması ölkənin daxili auditoriyası üçün nəzərdə tutulub: "Son aylarda Paşinyanın hakimiyyətdən devrilməsi ehtimalları daha real görünməkdədir. Paşinyanın o vaxt çevriliş adlandırdığı, Azərbaycanın Qarabağ hissəsində saxta seçkilər keçirərək hakimiyyətə gələn Arutunyan da hakimiyyətdən yola salındı. Yəni növbə Ermənistanda Paşinyan dövrünün sona çatmasına gəlib çatıb. Belə olan halda Paşinyan çıxış yolunu müharibədə görməkdədir. Bu baş verərsə, erməni işğalçılarının məhvi olacaq. Azərbaycan kifayət qədər hərbi gücə və zəngin hərbi arsenala malikdir. Bunu dünya reytinq cədvəlləri sübut edir. Azərbaycanla Ermənistan arasında hərbi qüvvələr balansı müqayisə olunmayacaq dərəcədə böyükdür".

Deputat əminliklə deyir ki, Azərbaycan Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin tək memarıdır. Azərbaycan dövləti, xalqı hər zaman humanizm prinsiplərinə söykənib. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Ermənistanın xalqımıza, dövlətimizə qarşı törətmiş olduğu bütün cinayətlərə baxmayaraq, biz regionda sülh və əməkdaşlıq naminə yenə də münasibətləri normallaşdırmaq yolunu seçmişik. Ermənistan isə bütün bunlardan nəticə çıxarmaq əvəzinə yenə əvvəlki təfəkkürdə qaldığını nümayiş etdirir. Bu, Ermənistan üçün olduqca acı nəticələrə gətirib çıxara bilər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Separatçıların hədəfi Paşinyanı devirməkdir

**Qarabağda cərəyan edən siyasi proseslər fonunda belə qənaətə gəlmək olar ki, separatçılar arasında qarşıdurma silahlı münaqişə həddinə çatıb. Böyük ehtimalla, yaxın günlərdə separatçılar bir-birilərinə güllə atacaqlar. Çünki dünən qondarma "prezident" seçkilərindən sonra baş verən hadisələr onu deməyə əsas verir ki, ermənilər özləri bir-birlərinə qənim kəsiliblər.**



Dünən separatçılar qondarma "parlament"də "prezident" seçkiləri keçiriblər. Seçkilərdə namizədlər Araik Arutyunyanın "xələfi" hesab olunan və keçmiş hərbi xuntaya daxil olan bütün qüvvələr tərəfindən dəstəklənən Samvel Şahramanyan, digəri Paşinyana yaxınlığı ilə tanınan, Ağdam-Xankəndi yolunun açılmasını qəbul edən Samvel Babayan idi.

Yekunda Babayanın "namizədliyi" qeydə alınmadığı üçün Şahramanyan yeganə "namizəd" kimi separatçıların yeni "başçısı" olub. Bildirilir ki, qapalı səsvermə zamanı 22 nəfər onun namizədliyinin lehinə, 1 nəfər əleyhinə səs verib.

Qeyd edək ki, separatçılar üçün Şahramanyanın bu qondarma quruma rəhbərlik etməsi asan olmayacaq. Çünki keçmiş "səhra komandiri" Samvel Babayan Xankəndidəki separatçı-kriminal rejimə rəhbərlik uğrunda mübarizədə fəal iştirak edir. Babayan erməni silahlı birləşmələri və keçmiş səhra komandirləri adlanan şəxslər arasında müəyyən nüfuza malikdir.

"4rd.am" saytına açıqlama verən Babayan deyib ki, heç bir ilkin şərt olmadan Azərbaycanla birbaşa dialoqun qurulması və Ağdam yolunun açılmasının tərəfdarıdır. O həmçinin bütün tərəfdarlarını Xankəndi küçələrinə çıxmağa çağırıb. Qeyd edib ki, hamı küçələrə çıxmasa, bu bizim işimizin bitdiyi anlamına gələcək.

Keçmiş səhra komandirinin fikrincə, "prezident"i üç nəfər (yəni Saakyan, Qukasyan və Vardanyan) yox, xalq seçməlidir. Babayan deyib ki, Qarabağ ermənilərini girov götürən və onları "aclığa məhkum edən" siyasətçilərin əsl məqsədi İrəvanda hakimiyyət dəyişikliyi etməkdir: "Birbaşa dialoq yolu ilə Azərbaycanla problemləri müzakirə etməklə biz Azərbaycan və Hayastan, eləcə də Hayastan-Türkiyə problemini həll edərik və regiona tam sülh gətirmiş olarıq".

S.Babayan Hayastan hakimiyyətini Şahramanyanın ətrafındakı "komandanı" dəstəkləməməyə çağırıb. O bildirib ki, bu komandaya Bako Saakyan və digərləri daxildir. S.Babayan əks halda Paşinyan hakimiyyətinin ciddi problemlərlə üzləşəcəyini qeyd edib.

Göründüyü kimi, separatçı-kriminal qruplaşmalar arasında baş verən davanın əsas motivi İrəvanda hakimiyyət dəyişikliyidir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 3 yanvar (Cümə günü) tarixli 78-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Cümə, 30 rəbiüləvvəl sənə 1337.
3 kanuni-sani sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rubldir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rubldir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## BAKI, 3 KANUNİ-SANİ [YANVAR]

**Ağır vəzifə qarşısında**

Hökumət və Parlaman tərəfindən Ümumi Sülh Konfransında Azərbaycanın istiqlaliyyətini müdafiə etmək üçün intixab edilmiş [seçilmiş] heyəti-mürəxxəsə [nümayəndə heyəti] bu günlərdə yola düşür. Filhəqiqə [doğrudan da], heyətin öhdəsinə düşən təklif [iş] artıq dərəcədə ağır və müşküldür. Bununla belə, həmin təklif Azərbaycan türk-islamları istiqbalı [gələcəyi] nöqteyi-nəzərindən qayət mühüm və əlzəmdir [lazımlıdır]. Deməktır olar ki, azərbaycanlıların taleyi həmin heyətə tapşırılır. Onun istedad və qabiliyyətindən Azərbaycan türk və islamlarının gələcəyi asılıdır.

Ümumcahan Sülh Konfransında ufacıq Azərbaycan məmləkəti mürəxxəslərinin səsləri qəti olmayacaqsa da, lakin onun xətti-hərəkəti, öz məmləkətlərinin müdafiəsi yolunda göstərdikləri məharət və siyasətin Azərbaycan məsələsi həllinə böyük bir nüfuz və təsir göstərəcəyi bədihidir [açıqdır]. Böylə əzim [geniş] bir siyasət meydanında bizim heyət siyasətcə nə qədər püxtə [peşəkar, təcrübəli] olduqlarının imtahanını verəcəkdirlər.

Heyətin üzərinə düşən müqəddəs vəzifəni ağır və müşkül edirici səbəblərin birisi də budur ki, həmin heyət öz müstəqim vəzifəsindən başqa, digər bir vəzifə dəxi öhdəsinə götürməyə məcbur olacaqdır. O vəzifə isə Azərbaycanı və burada yaşayan türk və islamları Avropaya və Amerikaya tanıtdırmaqdır.

İstiqlaliyyət iddiasında olan yeni təşəkkül etmiş ufaq məmləkətlər iki qisimdir:

1) Etilaf [Antanta] dövlətləri ilə müharibə edən dövlətlər torpağında yaşayanlar; 2) Bir də Etilaf dövlətlərinin öz torpağında yaşayan millətlər.

Birincilərin işlərinin asanlıqla keçəcəyi şübhəsizdir. Çünki, burada bir taqım siyasi nöqtələr vardır ki, hər kəsə məlumdur. İkincilərə qaldıqda, burada dəxi öylə millətlər vardır ki, onlar istiqlaliyyətləri üçün çoxdan bəri mübarizədə bulunmaqla özlərini ümum Avropa və Amerikaya tanıtmışdırlar. Öyləri dəxi vardır ki, onlara istiqlaliyyət yolunda mübarizəyə girişmək bu yaxınlardan mümkün olmuşdursa da, Müttəfiqlər elan etdiyi əsası dəlil və rəhbər görüb, bütün millətlərin müqəddəratı özlərinə həvalə olunması şüarına müstənidən [istinad edərək], ümidvardırlar.

Biz azərbaycanlılar axırıncılar cümləsindənik. Azərbaycan ləfzi və orada yaşayan türk və islamların nə olduğu Avropanın bir çox məhafilində [dairələrində] bəlli deyildir. Bu söz ortalığa çıxmış təzə bir sözdür. Halbuki, Lehistan, Finland, Ermənistan, Gürcüstan bu kimi, çoxdan bəri Avropa siyasi məhafilində işlənilən kəlmələrdir. Buna görədir ki, bizim sülh heyəti-mürəxxəsəmizin öhdəsinə ağır təklif gəlir:

**Bizi tanıtmaq və haqqımızı almaq**

Bu ağır vəzifənin nə tərzdə həll olunacağını heyəti-mürəxxəsəmiz pişəzvəqt [qabaqcadan] ətraflıca düşünüb həll etməlidir.

Ümumsülh Konfransı yanvarda şüru edəcəkdir [başlayacaqdır]. Lakin bu, ancaq Etilaf dövlətlərinin öz aralarında müzakirat məclisindən ibarət olacaqdır. Bütün millətlər nümayəndələri iştirakı ilə iniqada şüru edəcək [təşkil olunmağa başlayan] konfrans isə yalnız martda vaqe olacaqdır.

İştə, bu konfransın güşadınadək [açılışınadək] bizim heyəti-mürəxxəsə öz vəzifəsinin ikinci qeyri-rəsmi qismini ada etməlidir [yerinə yetirməlidir]. Azərbaycan məsələsindən Avropa, Amerika ricali-dövlətini [dövlət adamlarını] vaqif etmək üçün lazımi tədbirlərdə bulunmalıdır. Təşviqat icrası üçün icab edəcək [lazım olacaq] vasitələri və lüzumiyyəti görünən materialları və sənədləri və ya qüvvələri indidən əldə etməlidir. Sonradan bu ləvazimatın sövq edilməsi yolsuzluq cəhətincə qeyri-mümkün olacaqdır. Təşviqata dair icab ediləcək mənbələrdən istifadə edib, lazımi tədbirləri görməklə heyəti-mürəxxəsə öz müqəddəs vəzifəsini kafi bir surətdə ifa edə bilib, məmləkətin və millətin hüquq və şərəfini müdafiə etməyə müvəffəq olacaq deyə ümid bəsləmək üzrəyiz.

## ƏSGƏRLİK HAQQINDA

"Azərbaycan" qəzetəsinin 75-ci nömrəsinin birinci sütununda dərcən [dərc edilmiş] tələbə suallarına cavab olaraq möhtərəm Maarif naziri həzrətlərinin kəlamlarını mütalie etdikcə, insana bir başqa məsərrət [sevinc] və fərəh üz verir. O cənabın sözlərini təqviyə [sözünün qüvvəti] olaraq ərz olunur: İslam aləmində əsgərlikdən əfzəl [daha üstün] bir şey varmı? Əlbəttə, yoxdur. Qurani-şərifdə "fəzzə-ləllahul-mücahidinə ələl-qaidinə dərəcətən" buyurmuş. Yəni, mücahidlər qeyrimücahiddən çox dərəcə əfzəldirlər [üstündürlər].

İnsanın təbiəti ülvitələbdir [ülviliyi tələb edir]; artıqlıq və yüksəklik sevəndir. Əsgərlik dünya və axirət fəzilətini camidir [özündə ehtiva edir]. Dünyada əsgərin hüququna bir kimsə təcavüz edəmməz. Əsgərə şücaət kimi yaxşı sifət ariz [məxsus] olub, qorxaqlıq kimi xəbis sifətlərdən ari [uzaq] olur. Əsgərin gözü açıq, qəlbi saf olur. Çünki vilayətləri seyr edir. Hər bir vilayətdən və o vilayətin adamlarından çox şeylər dərk edir, ibrət götürür, səyahət edir, səyahətdən hasil olan ülum [elmlər], məkatibdə [məktəblərdə] təhsil edilmiş ülumdan daha mənfəətlidir. Əsgərlikdə səfərbərlik və müsafirət [səfər, yürüş] olur. Həzrəti Əli əleyhissəlam, "səfərdə çox fayda vardır" buyurmuşdur. Təfərrüc [səfər, gəzinti], həm iktisabi-məişətə [dolanacağını qazanmağa], elm, adab [ədəb-ərkan], nəcib insanların müsahibəti [söhbəti] və qeyrə... Amma, axirət mənfəəti isə apaşkardır: əsgər dünyada ağa olan kimi, axirətdə dəxi ağadır. Allahu-təala hüzurunda daimi olaraq övliyayi-üzzam [böyük övliyalar] ilə müsahibdirlər [həmsöhbətdirlər]. Başqalar onların məqamlarına [mövqeyinə, mərtəbəsinə] qibtə edərlər.

Əsgər üçün həyati-əbədiyyə [əbədi həyat] vardır. Onların mövtü [ölümü] həyatdır. "Qurani-məcidimiz" [şanı uca "Quran"ımız] onların meyitinə [ölüsünə] və məqtuluna [qətl ediləninə] "meyit" deməyi nəhy buyurmuşdur [qadağan etmişdir]: "Və lə təhsəbənnəlləzinə qutilu fisəbilil-lahi əmvatən bəl əhyaun ində rəbbihim yurzəqun." Yəni, Allah yolunda ölənləri meyit hesab etməyəsiniz. Onlar diri və həyydirlər [canlıdırlar]. Allahu-təala hüzurunda şad və xəndan [şən] ruzi yeyirlər.

Müsəlmanlar! Səy ediniz, əsgərliyə çalışınız! Övladınızı vəsvəseyi-şeytaniyyələr [şeytani vəsvəsələr] ilə əsgərlikdən qaçırtmayınız! Əsgərlikdən qaçan cihaddan qaçmışdır. O dəxi fasiq [dinsiz] və xəbis bir kimsədir. Sizləri əsgərliyə dəvət edən, zahirdə Əxzi-əsgər dairəsidir [Hərbi xidmətə çağırış idarəsidir], amma batində öz peyğəmbərinizdir. Əxzi-əsgər dairəsi, peyğəmbərin nümayəndələridir. Peyğəmbər zamanında əxzi-əsgərdən məqsud [məqsəd] islam baydağını ucaltmaq idi. İndi də məqsud həmandır. Bəlkə bu zamanın əhəmiyyəti daha artıqdır. Səbəbi məlumdur: Üqəla kəlamı [müdriklər sözü]: Məmləkət cismdir, əsgər can; əsgərsiz məmləkət, cansız bədəndir. Binaənileyh [ona görə], məmləkətimizə can verməkhamımızın müqəddəs vəzifəsidir.

*Bakı qazısı*
*Axund Əbdürrəhim*
*Hadizadə*

## BİR İLTİMAS MÜNASİBƏTİLƏ

Rus Milli Komitəsi Azərbaycan Xariciyyə Vüzəratına [Xarici İşlər Nazirliyinə] müraciət edib ölkəmizdən qaçmış və Şimali Qafqaz hüdudunda qalmış olan əlli min nəfər rus kəndlilərinin təkrar torpağımıza qayıtmağı və qaytarılmağı xüsusunda iltimasda [ricada] bulunur. Komitə deyir ki, "Azərbaycan Hökumətinin rus kəndçilərinə qarşı hüsn-təvəccöhünü bildiyimizə görə, təvəqqe edirik ki, həman kəndlilərə Azərbaycan torpağında yer verilsin, onlardan əlavə, Qafqazın sair yerlərindən gələn ruslara dəxi Azərbaycanda məskən salmaq imkanı rəva görülsün."

Təəccüb işdir! Rus Milli Komitəsi bir tərəfdən bizi və bizim hökumətimizi tanımağı əsla qəbul etməyir, naşiri-əfkarı olan [fikirlərini yayan] "Yedinaya Rossiya" qəzetəsinin hər nömrəsində hökumətimizi ilan kimi çalır, azadlığımızın düşmənləri cərgəsində durub onlarla həmavaz olub, Azərbaycan istiqlalına qarşı bədguluq [qeybət] edir, Rəisi-Vüzəramız [Baş Nazirimiz] tərəfindən təklif olunan vəzirlik [nazirlik] yerini qeyri-qabili-qəbul [qəbul edilməsi mümkün olmayan] bilib "atkaz" [rədd] edir, bir tərəfdən də bu tanımadığı və qəbul etmədiyi hökumətə müraciət edib, əlaqə bağlayır və dürlü-dürlü iltimaslarda bulunur. Bir tərəfdən bizdən küsür, bir tərəfdən əlaqə bağlayır. Daha açığı, rəsmiyyət məqamında bizi rədd edir, amma qeyri-rəsmi halda xeyrimizdən istifadə etmək istəyir.

Bu nədir? İkiüzlülükdür, yoxsa bizi safdərun [sadəlövh] hesab edib ələ salmaqdır? Və bu nə sənətdir ki, həman milli komitə genə bir tərəfdən Azərbaycan Hökumətinin "rus kəndlilərinə qarşı hüsn-təvəccöh göstərmək"də olduğunu guya iqrar [təsdiq] və etiraf edir, digər tərəfdən hökumətimizin həman rus kəndliləri xüsusunda "zülm və sitəm[in]dən" müfəttinanə [fitnəkar] bir surətdə qəzetələrində "danos"lar yazıb, əlavə general Tomsona bizlərdən və hökumətimizdən şikayətlər edir ki, guya biz azərbaycanlılar zalım olub "məzlum" rusların kənd və kəsəklərini dağıdırıq... Böylə olan surətdə, Rus Milli Komitəsinin təvəqqe və iltimaslarına bizim hökumətimiz nə əsasla məhəlgüzar olsun [məhəl qoysun]?

Əgər Rus Milli Komitəsi vaqedə [doğrudan da] Azərbaycan ruslarının qeydkeş [qayğısını çəkən] və dərdinə qalan isə, bəs nə üçün Kabinəmizdə vəzirlik yerini qəbul etmədilər? Halbuki bu vəzirliklə Azərbaycan ruslarına daha artıq kömək yetirə bilərdi və ehtiyacını daha tezliklə rəf'ə [aradan qaldırmağa] çalışardı.

Aşkar deyilmi ki, Rus Milli Komitəsinin amal və arzusu, Azərbaycanda yaşayan rusların mənafeyini gözləmək olmayıb, bəlkə politikaçılıqdır ki, o politika sayəsində bizləri təkrar Rusiyaya bitişdirib istiqlalımızın məhvinə səbəb ola və əlli min nəfər rusu Şimali Qafqaz hüdudundan qaytarıb da torpağımızda yerləşdirməkdə məqsəd genə də politika yeritməkdir ki, onun təfsiri uzundur, amma zənn edirəm ki, bunu anlamaq üçün təfsirə möhtac olacaq dərəcə kəmağıl deyilik.

Məsələnin özünə gəldikdə, əvvəla bunu unutmamalıdır ki, rus kəndlilərinin bilümum [ümumən] Qafqazda və bilxüsus [xüsusilə] Azərbaycanda yer və mülk sahibləri olması sabiq müstəbid rus hökumətinin "kolonizatsiya" və daha doğrusu, Qafqazı "ruslaşdırmaq" və Qafqazı ruslarla doldurmaqla, əhalisinin ehyanən [vaxt-vaxt] "üsyan" və inqilab törətməsinə mane olmaq politikasından nəticə verən bir işdir. Vəilla [yoxsa] Qafqazda və baxüsus [xüsusilə] Azərbaycanımızda bir o qədər yer və torpaq yoxdur ki, yerli əhalinin ehtiyacatını rəf' edəcək [ehtiyaclarını aradan qaldıracaq] dərəcə kafi olub, hələ artıq da qala ki, o artığını Rusiyadan gəlmiş rus kəndlilərinə verələr. Deməli, vətənimizdə rusların və rus kəndlilərinin mülk-məaşı [mülk və dolanacaq sahibi olmaları], yer və topraq sahibi olmaları, yerli əhali üzərinə rəva görülmüş zülm və cəbr [zorakılıq] nəticəsidir. Vaxtilə bu xüsusda, yəni Qafqazı rus "pereseleniye"sindən [köçündən] azad etmək haqqında başbilənlərimiz və iş görənlərimiz çox çalışdılar. Lakin səy və kuşişləri [çalışmaları] rus "bürokratiya"sının inadı müqabilində hədər gedib bir nəticə hasil olmadı. İndi isə yerimiz və toprağımızın sahibi özümüz olduğumuz halda, zənn etmirəm ki, hökumətimiz içində bir adam tapılsın ki, rus müstəbidlərinin politikasına tabe olub da fəlakətzədə [fəlakətə məruz qalmış] kəndçilərimizin üzərinə təkrar fəlakətlər yükləsin.

Hökumətimizin, Parlamanın alqışla qəbul etdiyi yer və torpaq proqramından məlumdur ki, vətənimizdə hər nə yer və torpaq varsa biəvəz [qarşılıqsız] olaraq kəndlilərimizə veriləcəkdir. Bu kənd[li]lərdən məqsud, şübhəsizdir ki, yerli əhalinin kəndçi sinfidir. Rus mühacirlərinin kəndçilərimizin yer və yurduna şərik çıxmağa heç bir haqqı yoxdur, çünki onların yeri öz doğma vətənləri olan Rusiyadır. O Rusiya ki, bütün aləmdə yer və torpağının çoxluğu ilə məşhurdur. Heç insaf deyil ki, Rusiyanın öz yeri, öz torpağı boş-boşuna qalsın da, rus kəndliləri gəlib də özgə yerinə şərik olmaqla həm özlərini və həm də yerliləri sıxıntı və əziyyətə düçar etsinlər. Zatən rus mühacirlərinin vətənlərindən fariq [ayrı] olub da, abu-havasına alışmamış və şəraiti-məhəlliyəsinə [yerli şəraitinə] öyrənməmiş yad yerlərdə sükunət etmələri [yaşamaları], özlərinə qabili-əhəmiyyət [əhəmiyyətli] bir mənfəət verməyib, çəkdikləri cəfanın gördükləri səfaya dəyməz olduğunu özləri də iqrar [təsdiq] etməkdədirlər. Hal-hazırda isə torpağımızda yaşayan və yaşamaq istəyən rusların üzərinə bir də Azərbaycan təbəəliyini qəbul etmək, binaənileyh [bu səbəbdən] Azərbaycan təbəəsi üzərinə gələn hər bir vəzifə və mükəlləfiyyəti [məsuliyyəti] qəbula məcbur olmaq təklifi gəlir. Bu da ki, məlumumuz olduğu üzrə, bir çox rusların və baxüsus bu ruslar haqqında "çalışmaq" vəzifəsində olan Rus Milli Komitəsinin xoşuna gələn və qəbulu mümkün görünən əhvallardan deyildir.

Böylə olan halda, rus mühacirlərinin vətənimizdə yerli əhalinin mülk və malına, yer və torpağına şərik olub da, özü-müzü və hökumətimizi tanımayatanımaya istirahətə məşğul və ya cəfaya düçar olmalarından nə məna? Vətənimizdə rus mühacirləri iki şərtlə yaşaya bilərlər: ya gərək Azərbaycan təbəəliyini tamamilə qəbul etsinlər və ya əcnəbi, yəni özgə dövlət təbəəsi sifətilə dolansınlar. Halbuki Rus Milli Komitəsinin bizim istiqlalımızı və hökumətimizi rəsmən tanımaq istəmədiyi, bu şərtlərin heç birinə imkan yolu vermir. Rus Milli Komitəsi Azərbaycanımıza "Rusiyanın bir parçası" nəzərilə baxır. Biz də ki, bu işə razı olmadığımızı, elani-istiqlal [müstəqilliyimizi elan] edib, bilfeil [əməli olaraq] müstəqil bir cümhuriyyət şəklində yaşamağımızla ruslara da və bütün aləmə də əlani [açıq] surətdə bildirməkdəyik. Bu məsələ isə artıq siyasət aləmində beynəlmiləl bir məsələ olduğu üçün Rus Milli Komitəsinin "iradəsi"lə deyil, Cahan Sülh Konfransının təyini ilə qəti surətdə həll və fəsl ediləcəkdir [başa çatacaqdır]. Cahan Sülh Konfransının da hər bir müzakiratı "millətlərin əsirlikdən azad edilməsi" şüarı əsasına müstənid olacağını [istinad edəcəyini] bildiyimiz üçün, biz dəxi əsirlikdən azad edilməyə layiq bir millət olduğumuzu bu məclisi-kübra [böyük məclis] təsdiq edəcək deyə qəviyyən etiqad etdiyimizdən dolayı [möhkəm inandığımız üçün] istiqlalımızı kamal ilə yeritmək işində davam edirik...

Və bir də əlli min nəfər rus qaçqınlarının vətənimizə gətirilməsi – bu vaxtda ki, hər yerdə cürbəcür naxoşluqlar və mərəzlər əmələ gəlir – hifzüssihhə [gigiyena] cəhətincə çox qorxuludur. Azar və naxoşluqların əvvəl-əvvəl qaçqınlar içində törədiyi və o qaçqınlardan da keçib yerli əhaliyə sirayət etməsi [yoluxması] hər kəsin məlumudur. Ondan əlavə, arada aclıq məsələsi də vardır ki, o nöqteyi-nəzərdən dəxi bu işə baxılarsa, onda da bir çox əndişələr meydana çıxar.

Bizim rus millətinə qarşı düşmənçiliyimiz yoxdur, lakin zamanə "başlı başın saxlasın" zamanəsidir. Onsuz da Milli Komitənin və hər bir rusun məlumudur ki, qonşu cümhuriyyətlərdə[n] köçməyə məcbur olub da bizim cümhuriyyətə pənah gətirən rusları biz kamali-mehmannəvazi [əsl qonaqpərvərlik] ilə qəbul edib, hər bir idarəmizdə qulluq vermişik və bu yolda o dərəcə "irəli getmişik" ki, idarələrimizin ən məsul vəzifələrini də onlara tapşırmışıq. Halbuki, mehmanlarımızın "ev yiyəsi"nə qarşı göstərməkdə olduqları müamilə [rəftar], ümumiyyət etibarı ilə bir o qədər də qədirşünasanə [qədirbilənliyə müvafiq] deyildir.

Məqsədi-batinisi [əsl məqsədi] məhz istiqlalımıza qarşı bir nümayişi-təhdidkaranə olduğu şübhədən ari [şübhəsiz] olan keçən zabastovka haqqında Rus Milli Komitəsinin münasibatı və bu komitənin naşiri-əfkarı olan "Yedinaya Rossiya"nın sözləri hələ yadımızdadır ki, kamali-fəxr ilə deyirdi: "Bu zabastovka, rus hissiyyatı-milliyyəsinin [milli hisslərinin] oyanmağına dəlalət edən bir vəq'ədir."

Bu "rus hissiyyati-milliyyəsinin" vətənimizdə oyanmasına qüvvət vermək üzrə bir də kənardan gəlmə əlli min nəfərlik bir rus kütləsinin hissiyyatını da əlavə etsək, qabaqda başımıza nələr gələ biləcəyini indidən mülahizə etmək olar.

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

**Öz müxbirimizdən**

- Teymurxanşuradan teleqraf edirlər ki, bolşeviklərin Terek çayından o tərəfə atılmaları doğrudur. Cəbhə Arqun xəttindədir. Qroznıya 8.000 (?) ölü və yaralı gətirilmişdir. Bolşeviklər təcili surətdə Qroznını boşaldırlar.

- Konfransa gedəcək Dağıstan nümayəndələri Çermoyev, Heydərov və Bammatov bu gün Bakı təriqi [yolu] ilə azim olmuşlardır [yola düşmüşlər].

**"Royter" agentəliyindən, 1 kanuni-sani [yanvar]**

İngiltərədə parlaman intixabatı [seçkiləri] böylə nəticə vermişdir: Məbuslardan müştərək ittihadçılar 334, müştərək liberallar 133, müştərək zəhmetkəşlər firqəsi 10 olmaq üzrə koalisiya tərəfdarları 477 yer qazanmışlardır. Bundan əlavə, ittihadçılar 50, liberallar 28, zəhmətkeşlər 62, müstəqillər 9, millətçilər 7, sinfeynerlər 73 yer qazanmışlardır. Fransa qəzetələri intixabatın nəticəsindən razıdırlar.

**"Royter" agentəliyindən, 30 kanuni-əvvəl [dekabr]**

- Berlində vəziyyət qəti surətdə müəyyən deyilsə də, möhkəm də deyildir. Hökumət qəti tədabir ittixazından [tədbirlər görməkdən] qorxmuş olmalıdır ki, hadisatın [hadisələrin] qanlı müsadiməyə [toqquşmaya] müncər olmasına [gəlib çıxmasına] imkan vermişdir.

- "Royter" agentəliyi vəkalətən xəbər verir ki, Bukinqem Sarayında və Xariciyyə Nəzarətində Vilson ilə icra olunan müşavirə hər iki tərəf üçün əlverişli bir surətdə cərəyan etmişdir. Müşavirədə qayət geniş məsələlər, əzcümlə [o cümlədən] Vilsonun 14 maddəsi müzakirə edilmişdir. İştirak edən ricali-dövlət [dövlət adamları] müzakiratın nəticəsindən məmnundurlar.

**"Royter", 31 kanuni-əvvəl [dekabr]**

- İngiltərədə intixabat [seçkilər] təntənəsiz keçmişdir. Çünki, bir çoxları gözləyirmiş ki, koalisiya tərəfdarlarının siyahısı keçəcəkdir. Yenə də bəzi nagəhani [gözlənilməz] şeylər olmuşdur. Məsələn, Askvit məğlub olmuşdur. Bundan əlavə, Parlaman əzasından [üzvlərindən] Makdonald, Qalland, Hobhaus, Samuel, Henderson, Makkenna, Satton dəxi məğlub olmuşlardır.

- Berlindən alınan teleqraflarda denilir ki, əski hökumətin iş başından düşürüləcəyi və Ledebur ilə Libknext başda olmaq üzrə yeni hökumət təşəkkül edəcəyinə ehtimal var.

(Böylə olarsa, deməli Almaniyada hökumət bolşeviklər əlinə keçər. - İdarə.)

- Vilson şərəfinə verilmiş olan ziyafətdə İngiltərə kralı bir nitq söyləyərək demişdir ki, İngiltərə və Amerika ümidvar olurlar ki, müharibəni bir daha təkərrür etməyəcək [təkrarlanmayacaq] bir surətdə qurtarıb, millətlər omuzundan təslihat [silahlandırma] yükünün götürülməsi üçün ümumi bir tərzi-hərəkət bulacaqlardır. Vilson cavabi nitqində bəyan etmişdir ki, heç bir məsələ onu Amerikadan gəlməyə vadar edə bilməzdi, məgər qarşısında bulunduğu məsələ, yəni dünyanın mənəvi qüvvəsini öylə təşkil etmək ki, bəşəriyyətin qüvvələrini mühafizə edəcək etilafları [uzlaşmaları] saxlamaq [təmin etmək] və hüquq və ədaləti cahanın ümdə kontrolu [hakim gücü] qılmaq.

Vilson təkid etmişdir ki, "Cəmiyyəti-Əqvam" [Millətlər Cəmiyyəti] əməlini [arzusunu] sözdən işə keçirmək lazımdır.

***("Royter" agentəliyindən)***

**Almaniyada inqilab**

Berlindən Kopenhaqa verilən teleqrafda deyilir ki, hökumət Berlin komendantı və polisə rəisi ilə müşavirədə bulunduqdan sonra, ixtilaf çıxmasın deyə, əsgəri məmurların küçələrə çıxmaması və özlərini mühafizə etməkdən ötrü silah işlətmələri əmrini vermişdir. "Spartak" firqəsi "Parizer platz"da bir neçə pulemyot qoymuşdurlar. Məzkur [adı keçən] firqə üzvləri qırmızı bayraqlar və pulemyotlarla avtomobildə gəzib, intibahnamə [təbliğat vərəqəsi] nəşr etmişlərdir [yaymışlar]. İntibahnamədə deyilir ki:

"İnqilab təhlükədədir. Əks-inqilabçılar öz saldatlarının qanını tökməkdədirlər."

Bundan əlavə, davam edən üsuli-idarəyə protesto etməkdən ötrü saldatlar və fəhlələr mitinqə dəvət edilirlər.

**İngiltərənin maliyyə işləri**

Çörçill öz nitqində İngiltərənin maliyyə işlərinin kəskinləşməsindən bəhs edib, bunların hamısının zail olacağına [keçib gedəcəyinə] ümidvar olur. Bizim borcumuzun 7-dən 6-sı məmləkətin borcudur. Biz Amerikaya 400 milyon lirəlik qızıl, 1 milyon Amerika ziqiymət şeyləri [qiymətli şeylər] göndərmişik. Bu məbləğin çox hissəsi bizim müttəfiqlərimiz Rusiya üçün verilmişdir. Biz bu təminatda zərərli olmayıb, hətta aldığımız borcların faizini dəxi verməliyiz. Müttəfiq dövlət komissiyası bütün məxariclərin verilməsi məsələsini aşkar etməkdən ötrü Almaniyanın etibari-nəqdiyyəsini [pul kreditini] hərtərəfli mülahizəyə alacaqdır.

**Lloyd Corcun nitqi**

Lloyd Corc Bristolda söylədiyi nitqində demişdir ki, İngiltərə donanması zülm etmək deyil, müdafiə aləti olmuşdur. Buna görə, İngiltərə donanmasının haqqı gözlənməlidir. Sonra Lloyd Corc təkrar etmişdir ki, Almaniya bütün müharibə dəyərini axırıncı cəriməsinə qədər verməlidir. Müttəfiqlərin müharibə məxarici 24 milyon İngiltərə lirəsidir. Məğlub olanların qalib gələnlərdən az verməlari təəccüb dür. Lloyd Corc İngiltərənin müharibə məxaricinin Almaniyadan artıq olduğunu göstərmişdir. Avropa müttəfiqləri müttəhidülqövl [sözü bir yerə qoyub] qərara almışlar ki, Kayzer və onun yoldaşları müharibə zamanında etdikləri təcavüzat və xəyanətə görə məsuliyyətə cəlb olunmalıdırlar. Vilsonun da buna razı olacağına ümid edilir. Almaniya təbəələri İngiltərədə çox qalmayacaqlardır. Onlar İngiltərədən köçürülüb bir daha övdət etməyəcəklərdir [qayıtmayacaqlar].

**İngiltərə əsgərlərinin vürudu [gəlişi]**

Kölndən Amsterdama xəbər verirlər ki, 32 min İngiltərə əsgəri oraya varid olmuşdur [gəlmişdir].

**Yaponiya zirehlisi İstanbulda**

İstanbuldan Parisə xəbər verirlər ki, Yaponiya zirehlisi "Şikisima" və iki sualtı qayığı İstanbula varid olmuşdur.

**Müttəfiqlər donanması**

Müttəfiqlər donanması Sevastopol şəhərini bolşeviklərlə bir yerdə hərəkət edən almanlardan xilas edəcəklərdir. Müttəfiqlər donanması Odessadan gələn heyətin xahişinə görə hərəkət edəcəkdir.

**Almaniyada**

Kopenhaqdan teleqraf edirlər ki, övdət edən Almaniya əsgərləri Berlinə varid olanda "Döyçland über alles" marşı və qeyri marşlar çalınıb və bir dənə də olsun inqilab marşı çalınmamışdır. Əhali, zabitləri və saldatları qalib gələn bir surətdə təbrik etmişdir. Ebert demişdir ki, Almaniya əsgəri başı uca və qalib bir surətdə övdət etmişdir [qayıtmışdır]. Qüvvətli və təzə Almaniyanın binası ancaq əsgərlərlə mümkündür.

**Praqada üsyan**

Praqadan verilən teleqrafda deyilir ki, qaragüruh dəstəsi polisin mümaniətinə [maneçiliyinə] baxmayaraq dükanları dağıdıb, mallarını qarət etmişdir. Nəticədə pulemyot və tüfəng atışması olmuşdur. Tələfat çoxdur.

**Metsdə talan**

Metsdən xəbər verirlər ki, iğtişaş əsnasında alman mağazalarının şüşələri sındırılıb, bir çox mal qarət edilmişdir. Fransız məmurları qarətgərlər əleyhinə ciddi hərəkatda bulunmuşlardır. Gecə saat 10-dan sonra alman dilində danışmaq qadağan edilmişdir.

**Vilsonu dəvət**

Berndən teleqraf edirlər ki, federalnı şura [Federal Şura] Vilsonu İsveçrəyə dəvət etmişdir.

**Norveç və Rusiya**

Xristianiyadan [Oslodan] xəbər verirlər ki, Norveç səfarəti [səfirliyi] Petroqraddan çıxmışdır. Ola bilər ki, bolşevik hökumət nümayəndəsinə də Norveçdən çıxmaq təklifi edilsin. Həmçinin Danimarka ilə bolşevik hökuməti arasında münasibati-siyasiyyənin qət ediləcəyi [kəsiləcəyi] xəbər verilir.

## SÜLH ƏTRAFINDA

**Belçika tələbatı**

Belçika Xariciyyə naziri Himans demişdir ki, Sülh Konfransında Belçika Hökuməti 1879-cu ilin müahidənaməsinə [sazişinə] təzədən baxılmağı tələb edəcəkdir. Bu müahidənamə ilə Belçika Hökuməti Limburq və Lüksemburq əyalətlərindən məhrum edilmişdi. Himansın fikrincə Hollandiya, Antverpen limanını qapayan Şelda[nın] istifadəsindən imtina etməlidir.

**Yaponiya heyəti**

Teleqrafların verdiyi xəbərə görə, dekabrın 10-da Yaponiya nümayəndələri Sülh Konfransına azim olmuşlardır [yola düşmüşlər].

**Kürdüstan heyəti-mürəxxəsəsi**

"Yedinaya Rossiya"nın yazdığına görə, ən mövsuq [etibarlı] mənbələrdən xəbər alınmışdır ki, kürdlərin başçıları, başda məşhur Kamal bəy olmaq üzrə, Müttəfiq dövlətlər heyətinə gələcək Kürdüstan üsuli-idarəsi barəsində məlumat vermək üçün iqdamatda [təşəbbüsdə] bulunmuşlar. "Yedinaya Rossiya" qəzetəsinin məlumatına görə, xüsusi heyət göndərməyi hamı kürd başçıları istəyirlər, fəqət Musa bəy Moxbubanski (Mutki qövmü şeyxi), Əli bəy (Sinanlı qövmü şeyxi) və başqa xırda əqvam [qövmlərin] şeyxləri riza göstərməyirlər.

## QƏZETƏLƏRDƏN

**Lloyd Corc**

Lloyd Corc Kuins-hollda söylədiyi nitqində demişdir ki, sülh, ədalətkaranə [ədalətli] bir surətdə əqd edilməlidir [bağlanmalıdır]. Yeni müharibə ehtimalını belə bərtərəf etməlidir ki, bir daha qeyri-mümkün olsun. Lloyd Corc, Cəmiyyəti-əqvama [Millətlər Cəmiyyətinə] inanır. Sülh konqresi, orduları yox etməlidir. Zira, ordu varlığı müharibənin baş qalxızmasına səbəbiyyət verir.

**İran heyəti-mürəxxəsəsi**

Bir neçə gün bundan əqdəm [qabaq] "Yedinaya Rossiya" qəzetəsində İran heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] barəsində məlumat verilmişdi. Orada filcümlə [o cümlədən] İranın Azərbaycanı özünə mülhəq etmək [qatmaq] arzusunda olduğu da sərahətən [açıq surətdə] yazılmışdı. Şimdi qəzetə böylə məlumat verir:

*"İran heyəti-mürəxxəsəsinin Avropaya gedib orada əfkari-ictimaiyyəni [ictimai fikri] İranın qayə və amalı ilə tanış etdikdən sonra Sülh Konqresində 8 maddədən ibarət tələbatı [tələbləri] müdafiə edəcəyini xəbər vermişdik! Axırıncı maddə İran sərhədini düzəltmək. Öylə düşünülməsin ki, İran fəqət [sadəcə] bir Azərbaycanı istəyir. Xeyr, ixtarnamənin birinci surətində, axırıncı maddədə 20-dən ziyadə maddələr var idi. Onların cümləsindən, məsələn, Türkiyə Kürdüstanını da İran istəyirdi. İxtarnaməni müzakirə edib, yenidən tərtib verdikdə, sərhəd barəsində olan maddələrin hesabı oradan çıxarılmışdır, fəqət İran heyəti ola bilsin ki, Türkiyə Kürdüstanını da tələb etsin."*

**Bolşeviklərin məğlubiyyəti**

Omskdan Kopenhaqda olan rus səfarəti bürosuna xəbər verirlər ki, bolşeviklər Yekaterinburq cəbhəsində məğlub olub Perm tərəfə geri çəkilirlər.

## DAĞISTANLILAR CÜMHURİYYƏTİNDƏ

**İmam Şamil qitəsi [dəstəsi]**

Məşhur hürriyyət və istiqlal qəhrəmanı Şeyx Şamilin yadigarı üçün Dağıstanın ovçu-əsgər [atıcı] qitələrindən [dəstələrindən] birini onun ismi-paki [pak adı] ilə adlandırırlar. Şeyx Şamil qitəsinə qeyd edilmək və burada xidmət etmək, şimali qafqazyalılarca böyük şərəf ədd [hesab] olunduğundan, hər kəs bu qitə əsgərləri sırasında bulunmağa çalışır.

**Şimali Qafqaziya Cümhuriyyəti və Müttəfiqlər**

Eşitdiyimizə görə, Şimali Qafqaziya Cümhuriyyəti ordusunun komandanlığını bolşeviklərlə mübarizə müddətincə Müttəfiqlər və İngiltərə ordusu nümayəndəsi miralay [polkovnik] Roulendson öz öhdəsinə götürmüşdür.

## Dünya olduğu kimi

# Qlobal istiləşmə ləngiyə bilər

**Sakit okeanın şərq hissəsinin temperaturu bütün iqlim modellərinə baxmayaraq, aşağı düşür. ABŞ-nin Kolorado Universitetinin alimləri okeanın şərq hissəsinin temperaturunun son 39 ildə 0,5 dərəcə aşağı düşdüyünü bildiriblər. Okeanın soyuma prosesində aktiv iştirak edən buz sahəsinin böyük olmasını nəzərə alsaq, sözügedən prosesin iqlimə qlobal təsiri qaçılmazdır.**

Alimlərin qiymətləndirmələrinə əsasən, bu əsrin sonuna kimi ortalama qlobal temperatur bunun sayəsində daha öncə düşünüldüyü kimi, 1,9 dərəcə deyil, 1,3 dərəcə yüksələcək. Hazırda elmi cəmiyyətdə qəbul edilmiş iqlim dəyişikliyi konsepsiyaları atmosferdə parnik qazlarının miqdarının artması və bunun da qlobal istiləşməyə səbəb olması nəzəriyyəsinə əsaslanırlar.

Yer kürəsinin ən böyük okeanı olan Sakit okean qlobal iqlimin tənzimlənməsində vacib rol oynayır. Belə ki, o, Günəş işığının böyük hissəsini udur və su axınları vasitəsilə bütün istiliyi planet üzrə paylayır. Alimlər Sakit okeanın soyumasını ilk dəfə 2022-ci ildə müəyyən etmişdilər. Daha öncə təxmin edilirdi ki, digər okeanlar kimi, Sakit okeanın da temperaturu yüksələcək. Lakin 1979-cu ildən 2020-ci ilə kimi yığılmış məlumatların geniş analizi onu göstərdi ki, Sakit okeanın temperaturu stabil olaraq aşağı düşür.

Sakit okeanın qərb hissəsində suyun istiləşməsi, şərq hissəsində isə suyun soyuması buludların şərq hissədə böyük sahə üzrə daha aşağı hündürlükdə yerləşmələrinə səbəb olur. Daha sıx buludlar daha çox əks olunmuş Günəş işığı deməkdir. Bu zaman istilik Yer kürəsi atmosferinə daha az daxil olur və parnik qazları səbəbilə orada daha az müddət ərzində qalır. Başqa sözlə desək, Sakit okeanın şərq hissəsinin soyuması qlobal istiləşmə tempini ləngidir.



# Ən qədim ulduz



**"James Webb" kosmik teleskopunun müşahidə etdiyi ilk kosmik obyektlərdən biri "Earendel" ulduzudur. Sözügedən ulduz "Hubble" teleskopu tərəfindən 2022-ci ilin mart ayında kəşf edilib.**

"Earendel" kainatın ən uzaq məsafədə yerləşən ulduzlarından biri hesab edilsə də, bunu "James Webb" təsdiqləməli idi. Nəticədə kosmik teleskop bu işin öhdəsindən gələ bilib.

"Earendel"dən gələn işıq ilə Yer kürəsi arasında WHL0137-08 adlı qalaktikalar qruplaşması tərəfindən qravitasiya dalğası yaranıb. Ulduz həmin qravitasiya dalğasına elə ideal şəkildə yerləşib ki, onun işığı nəticədə 4000 dəfə daha güclü olub. "James Webb" müasir təchizatlarından istifadə edərək sözügedən ulduzun növünü və ona kimi olan məsafəni təyin edə bilib.

"Earendel" ilə Yer kürəsi arasındakı dəqiq məsafə hələ təyin olunmayıb. "Earendel"dən gələn işığın spektral analizi onu göstərib ki, o, B sinfinə (yüksək temperaturlu səthə və ağ-mavi rəngə sahib ulduzlar) daxil olan ulduz növüdür. Sözügedən ulduzun temperaturu Günəşin temperaturundan 2 dəfə, parlaqlığı isə milyon dəfə yüksəkdir. Onun kütləsi də Günəşin kütləsindən dəfələrlə böyükdür.

Qeyd etmək lazımdır ki, "Earendel"dən əvvəl kainatın müşahidə edilən hissəsində ən qədim ulduz statusunu "İkar" əldə etmişdi. O, Böyük partlayışdan 4,4 milyard il sonra formalaşıb.

# İmperator məzarındakı tapıntı arxeoloqları təəccübləndirib

**Çin imperatoru Venin məzarının yanında nəhəng panda və tapir qalıqları aşkar edilib. Təxminən 2200 il əvvəl imperatorun təbəələri tanrılara və ya ruhlara hədiyyə olaraq gətirdikləri nəhəng panda və tapirin qalıqlarını hökmdarın məzarının yanında basdırıblar.**



Tapir qalıqlarının tapılması arxeoloqları təəccübləndirib, çünki bu, həmin heyvanların bölgədə məskunlaşdığını göstərir. Qədim Çin mədəniyyətinə aid sənədlərdə tapirəbənzər heyvanların təsvirlərinə rast gəlinsə də, bu, tapirin qədim Çində yaşadığına dair ilk fiziki sübutdur.

Bu gün tapirlərin beş növü mövcuddur. Tapılan qalıqlar Malaya tapirinə aiddir. Onların boyu 2,4 metrə, çəkisi isə 320 kiloqrama qədərdir. Hazırda təhlükə altında olan bu növün sayı 2500-dən azdır. Malaya tapirinə yalnız Malayziya və Tayland da daxil olmaqla Cənub-Şərqi Asiyanın bəzi yerlərində rast gəlmək olar.

Məzarın yanında nəhəng pandanın və tapirin sümüklərindən əlavə, qrup qaurların (bizon növü), pələnglərin, yaşıl tovuzquşuların, yakların, qızılı çınqıl burunlu meymunların və keçiyə bənzər takinlərin qalıqları da tapılıb. Bu növlər hələ də Çində yaşayır, lakin onların bəzilərinin nəsli kəsilmək üzrədir.

# Ayın cənub qütbünə ilk eniş edilib

**Hindistanın "Chandrayaan-3" kosmik aparatı tarixdə ilk dəfə Ayın cənub qütbünə uğurlu eniş edib. Bir neçə həftə öncə bura Rusiyanın "Luna-25" kosmik aparatı uğursuz eniş edərək yararsız hala düşmüşdü.**

Hindistan Aya uğurlu eniş etmiş dördüncü, bunu Ayın cənub qütbündə etmiş birinci ölkədir. Daha öncə Aya yalnız üç ölkə - ABŞ, keçmiş SSRİ və Çin eniş ediblər. "Chandrayaan-3"dən fərqli olaraq, adları sadalanmış ölkələrin göndərdikləri kosmik aparatlar Ayın ekvatoruna yaxın sahədə eniş ediblər. Bu sahə nisbətən xoşagələn temperatura və landşafta sahib təhlükəsiz hesab edilir. Bununla yanaşı, Ayın bu sahəsinə Günəş şüaları rahatlıqla çata bilir ki, bu da öz növbəsində özlərində Günəş batareyalarını birləşdirən aparatların və robotların şarj olunmaları üçün ideal şəraitdir.

Ayın cənub qütbünün əksər sahəsi dərin kraterlərə və çökəkliklərə sahibdir. Ayın bu sahəsi milyard illər Günəş işığı görmədiyi üçün daimi olaraq qaranlıq mühitdə qalır. Buranın temperaturu mənfi 203 dərəcəyə



çatır. Belə ekstremal şərtlər Ayın cənub qütbünün Yer kürəsindən müşahidə edilməsini çətinləşdirir və üstəlik yüksək həssaslığa sahib təchizatların çalışmalarına maneə yaradır.

14 iyul tarixində start götürən "Chandrayaan-3" kosmik gəmisi 5 avqustda Ayın orbitinə çatıb. Özündə "Pragyan" adlı robotu birləşdirən "Vikram" eniş modulu 17 avqustda kosmik gəmidən ayrılıb. Missiyanın növbəti mərhələsində "Pragyan"ın işə salınması reallaşdırılacaq. Sözügedən robot eniş etdiyi sahədə müşahidə və elmi təcrübələr aparacaq.

# Suda boğulmanın qarşısını alan geyim hazırlanıb

**Fransalı ixtiraçılar uşaqları boğulma riskindən qoruyan geyim hazırlayıblar. Geyim təsadüfən hovuza düşən uşaqlar üçün təhlükəsizliyi təmin edir.**

Qısaqol köynək şəklində olan geyim su ilə təmasda dərhal reaksiya verir və içərisindəki hava ilə dolu boşluqlar sayəsində xilasedici jiletə çevrilir.

Hazırda geyimin yalnız uşaq ölçülərində modelləri satışa çıxarılıb.

Qeyd etmək lazımdır ki, yeni ixtira "Lepine 2023" müsabiqəsində qızıl medala layiq görülüb.

# Yupiterin peykinin yeni fotoları çəkilib

Yupiterin "İo" adlı peykinin yeni fotolarını onun çox yaxınlığından keçən "Juno" kosmik aparatı çəkib. Bu, cari ilin iyulun 30-da kosmik aparatın peykdən 22000 km aralıda olduğu zaman baş verib. Sonuncu dəfə peykin yaxın şəkillərini "Galileo" kosmik aparatı çəkmişdi. Bu isə 20 il bundan öncə baş verib.

"İo" vulkanları hesabına daimi olaraq dəyişən kosmik cisimdir. O, Günəş sisteminin ən aktiv cismi hesab edilir.

Xatırladaq ki, "Juno missiyası" 12 il bundan öncə start götürüb və bu missiya çərçivəsində "Juno" kosmik aparatı Yupiterin orbitinə 4 iyul 2016-cı il tarixində çatıb. İlkin mərhələdə aparat Günəş sisteminin ən böyük planeti olan Yupiteri müşahidə edib. Daha sonra isə o, Yupiterin peyklərini müşahidə etməyə başlayıb.

# 20 qollu canlı



**Antarktida sahillərində 20 qolu və çiyələyə bənzər forması olan yeni növ dəniz canlısı aşkar olunub. Bu haqda məlumat "Onurğasızların sistematikası" jurnalında dərc olunub.**

"Promachocrinus fragarius" adlı dəniz canlısının okeanın təxminən 1981 metr dərinliklərində yaşadığı bildirilib. Onun rəngi bənövşəyi və tünd-qırmızı arasında dəyişir.

Yeni kəşf edilən dəniz canlısının altındakı qollar kobud və zolaqlıdır. Yuxarıdakı qollar isə tüklüdür.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə *abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |



RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

Türk həmrəyliyinə Azərbaycan töhfəsi

Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin möhkəmləndirilməsi dövlətimizin xarici siyasətinin əsas prioritetidir

Azərbaycanla Şimali Makedoniyanı dostluq və əməkdaşlıq münasibətləri birləşdirir

Şimali Kiprin Prezidenti Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edib

Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun (M-3) bir hissəsinin əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

Ordumuz hər an düşmənə cavab verməyə hazırdır

Belə görünür ki, Ermənistan "dəmir yumruq" üçün darıxıb

Ağ Evin ikiüzlü siyasəti

Paşinyan Kremlə savaş açıb

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 13.09.2023-cü il tarixində gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# Azərbaycanda dağıdıcı zəlzələ gözlənilmir

**Son günlər ölkəmizin bir sıra regionlarında ardıcıl olaraq zəlzələlər müşahidə olunur. Bu zəlzələlərin dağıdıcı gücü olmasa da, irəliləyən zamanda daha şiddətli təkanların baş verə biləcəyi ehtimalı insanları narahat edir. Əhali arasında təşvişin yaranmasında dezinformasiya tipli məlumatların da rolu böyükdür.**

Azərbaycanda sonuncu dəfə güclü zəlzələ 2000-ci il noyabrın 25-də qeydə alınıb. Həmin vaxt 6.8 maqnitudalı zəlzələ nəticəsində bəzi tikililərə ziyan dəyib.

Ötən il ərzində isə ölkədə 12 min 762 yeraltı təkan qeydə alınıb ki, onlardan yalnız 17-si hiss olunub. Baş verən yeraltı təkanlardan 2949-u yerli, 4645-i regional, 3776-sı isə uzaq zəlzələlərdir.

## Xırda təkanların olması normal haldır

Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli qəzetimizə açıqlamasında bildirib ki, ölkədə seysmoloji vəziyyət, demək olar ki, fon səviyyəsindədir. Azərbaycan seysmoloji ərazidə yerləşdiyinə görə ölkədə hər gün xırda təkanların olması normal haldır: "Yer daxilində daim geodinamik proseslər getdiyinə görə ayrı-ayrı bölgələrdə toplanan gərginliklər xırda təkanlarla müşayiət olunur. Bu zəlzələlər, adətən, çox aşağı maqnitudalı olduğu üçün onların əksəriyyəti hiss edilmir. Ümumiyyətlə, bu yeraltı təkanların bəziləri hiss olunsa belə, təhlükəli deyil".

Q.Yetirmişli qeyd edir ki, Azərbaycan ərazisi seysmoaktiv bölgədə yerləşir: "Qonşu ölkələr olan Türkiyə, İran və bəzi Asiya ölkələri də bizim kimi Alp-Himalay seysmik qurşağında yerləşirlər. Seysmik qurşağa düşən hər zona təhlükəliliyinə görə müəyyən ballıq əraziyə düşür. Hətta detallı incələmə apardıqda ölkəmizdə 10 ballıq ərazilə-



rin də olduğu müəyyən edilir. Ölkənin şimalında yerləşən Quba, Qusar zonası, Böyük Qafqazın cənub-şərqi - Şamaxı-İsmayıllı zonası 9-10 ballıq, şimal-qərbi - Şəki, Zaqatala, Balakən, habelə Qəbələ, Gəncəbasar, Naxçıvan, Qarabağ və Talış əraziləri 9 ballıq zəlzələ zonasında yerləşir. Abşeronun seysmik aktivliyi isə Xəzər dənizində yerləşən zəlzələ ocaqları ilə bağlıdır".

Qurban Yetirmişli deyir ki, yaxın zamanlarda Azərbaycanda fəlakət və dağıntılara səbəb ola biləcək zəlzələ gözlənilmir: "Ölkədə elə bir yeraltı zona yoxdur ki, o zəlzələ ocağında çox böyük gərginlik toplansın, geokimyəvi parametrlərdə güclü dəyişikliklər olsun. Ölkə ərazisində seçilmiş poliqonlar üzrə qravimetrik, maqnitometrik, GPS stansiyalar vasitəsilə ölçmələr həyata keçirilir. Yer altında gedən proseslər, litosferdə blokların sürət və istiqamətləri GPS stansiyalar vasitəsilə izlənilir. Həmçinin mərkəzdə geokimyəvi tədqiqatlar da aparılır. Yalnız bütün ölkə ərazisində aparılan bu tədqiqatlardan sonra harada güclü və xırda təkanların baş verəcəyi, fon səviyyəsinin hansı vəziyyətdə olması ilə bağlı nəticəyə gəlinir".

## Zəlzələnin əlamətləri heç vaxt özünü doğrultmayıb

Bu il fevralın 6-da Türkiyədə baş verən dağıdıcı zəlzələ qardaş ölkədə insanların tələfatı, yaralanması, minlərlə binanın tamamilə dağılması və qəzalı vəziyyətə düşməsi ilə müşayiət olundu. Türkiyədə yeraltı təkanların qeydə alındığı dərinlik az olduğuna görə 7.8 və 7.6 maqnitudalı zəlzələlərin yerin üstündə təsiri 9 ballıq zəlzələyə bərabər oldu. Türkiyənin Qaziantep, Malatya, Hatay, Adana, Mersin, Kilis, Osmaniye, Adıyaman, Şanlıurfa, Diyarbəkir vilayətlərində hiss olunan zəlzələ böyük dağıntılar əmələ gətirib. Zəlzələlərdən sonra 4000-dən çox afterşok qeydə alındı.

Azərbaycanlı alimlər qardaş ölkədə baş verən fəlakətdən sonra orada araşdırmalar aparıblar. Qurban Yetirmişli deyir ki, Türkiyədə zəlzələ bölgəsində elə binalar var idi ki, eyni layihə əsasında, bütün normativlərə riayət olunaraq inşa edilmələrinə, aralarında təxminən 10 metr məsafə olmasına baxmayaraq, bir bina tamamilə dağılmış, digərində isə cüzi çatlar əmələ gəlmişdi: "Bunun səbəblərini aydınlaşdırmaqdan ötrü qruntun yer dəyişməsini təyin etmək lazımdır. Belə ki, bütün binaların altı ayrı-ayrı tədqiq edilməli, layların müxtəlifliyinə nəzər yetirilməlidir. Hazırda orada araşdırma aparan yaponiyalı seysmoloqlar da bizimlə eyni fikirdədirlər".

Baş seysmoloq zəlzələlərlə bağlı qabaqlayıcı proqnozların verilməsi məsələsinə də toxunub. Deyib ki, zəlzələni əvvəlcədən müəyyən etmək üçün xüsusi bir cihaz yoxdur: "Xüsusən də güclü zəlzələlərin dəqiq yeri və vaxtı barədə qısamüddətli proqnoz vermək mümkün deyil. Lakin ortamüddətli və uzunmüddətli proqnozlar vermək, aktivliklərin olduğu yerləri və zəlzələ gözlənildiyini təxmin etmək mümkündür. Onu da qeyd edim ki, zəlzələnin gücünü ölçmək üçün ixtira olunan cihazların da heç birinin aktuallığı yoxdur. Yeraltı təkanların baş verəcəyi ilə bağlı görülən əlamətlərin indiyə qədər heç biri özünü doğrultmayıb".

*Ü.XASPOLADOVA,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri Musa Pənahova bacısı

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi "25 №-li Yol İstismarı" MMC-nin direktoru İmanverdi Aslanova bacısı

**TAMİZƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi "20 №-li Xüsusi Təyinatlı" MMC-nin direktoru Mirqiyas Kazımova anası

**XANIM MİRSAHİB QIZININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5509
Sifariş 2270

Qiyməti 40 qəpik